

# Unun və çörəyin bahalaşması rəsmiləşdi

*İqtisadiyyat Nazirliyinin Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti un və çörək istehsalçıları ilə birlikdə bu məhsulların qiymətlərinin yuxarı hədlərini müəyyənləşdirib. "Unikal" xəbər verir ki, bu barədə qurum açıqlama yayıb. Məlumatda deyilir ki, son dövrdə dünyada baş verən iqtisadi proseslərin və COVİD-19 pandemiyasının təsirləri...*

Səh.3



# Hacıbala Abutalıbov müəmması...

UNİKAL

№01 (2086) 7 yanvar 2022-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru

Səh.9



# Böyük güclərin yeni savaşı, yoxsa...

## Keçmiş mer qalmaqallı cinayət işindən necə qurtuldu?

*Bakı şəhər İcra Hakimiyyətinin (BŞİH) keçmiş Aparat rəhbəri, bir müddət icra başçısının müavini səlahiyyətlərini icra etmiş Rasim Quliyevin cinayət işi üzrə məhkəmə prosesi yekunlaşdı: o, 3 il müddətinə azadlıqdan məhrum edildi. Hökmdə qeyd olunub ki, R. Quliyev 1 il 6 ay rəhbər və maddi məsul vəzifə tuta bilməz. Ona elan edilən ittihamlarla razı olmadığını, barəsində bəraət hökmünün çıxarılmasını xahiş edən sabiq Aparat rəhbəri məhkəmədəki son sözündə bunu söyləməyi də unutmadı: "Bu işdə bir zərərçəkən var, o da mənəm və ailəmdir". Əslində R.Quliyevə verilən həbs cəzasının müddəti bir çoxlarını haqlı olaraq təəccübləndirib: axı ona Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə...*

Səh.8

## "Bizdə inflyasiya çox sürətlə gedir"



*Son günlər ölkədə baş verən bahalaşma, xüsusən də un və çörəyin qiymətinin artması müzakirələrə səbəb olub. "Unikal" qəzetinə müsahibə verən ReAL Partiyanın icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli ilə söhbətimiz də elə bu mövzu ətrafında oldu.*

Səh.4

## Anar Kərimovun islahat vədləri...



*2021-ci ilin son günlərində Mədəniyyət naziri Anar Kərimov ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında mədəniyyət sahəsində görülən işlərdən danışdı. Eyni zamanda görüləcək işlərə, aparılacaq islahatlara toxundu.*

Səh.6

## Əbülfəs Qarayev yenidən həyəcan içində



*Biləsuvarın sabiq icra başçısı Mahir Quliyevin barəsində olan cinayət işi üzrə məhkəmə prosesinin yaxın vaxtlarda başlayacağı gözlənilir-di. Lakin yola salmaq üzrə olduğumuz həftə aydınlaşdı ki, həmin məhkəməyə sədrlik edəcək hakim dəyişdirilir.*

Səh.11

# "Afaqı toya çağırsam da, gəlmədi" - Nadiq Qafarzadə




***"Getdim 2 ay Moskvada qaldım. Toy yox idi, qalmışdıq belə. Təsəvvür edin, hər gün toydasan və birdən yox oldu. Başladım depressiyaya düşməyə".***

Bu sözləri müğənni Nadir Qafarzadə "Səhər mərkəzi" proqramında deyib. İfaçı oğlu Loğmanın toyuna gəlməyən sənət dostlarından bəhs edib: "Gəlib nə qədər pul yazdıracaqsan ki, məni təəccübləndirəcəksən? Mənə maraqlı pul yox, dostlarımın gəlməsidir. Gözüm qapıda qalmışdı. Afaq Gəncəlini, başqasını gözlədim. Bəziləri paketdə hədiyyə göndərdi, bunlar mənə önəmli deyildi. Gözləmirdim ki, Damla gəlsin. Onun heç bir məclisinə getməmişəm. Gəldi və sona kimi oturdu. Toyu bazarertəsi etdim ki, heç bir məşhurun işi olmasın. Dekabrın 20-də dostlarımı tanıdım. Bildim kim kimdir. Kimə daha çox addım atmaq lazımdır, kimə yerində. Toydan bir neçə gün əvvəl Elton Hüseynəliyev zəng etdi ki, toyu kim aparacaq? cavab verdim ki, Nicat adlı ifaçı. Qayıtdı ki, özüm gəlib aparacam. Onun böyüklüyü idi".

Afaq isə Nadirə "Çəkilişdə olduğum üçün gələ bilmədim. Əzizin toyunda gələcəm. Heç vaxt Nadir sözümü yerə salmayıb. Bu cür insanın toyuna gedə bilmədim" cavabını verib.

# "Həyat yoldaşımı son nəfəsində görməyə qoymadılar" - Gülüstan Əliyeva

***Əməkdar artist Gülüstan Əliyeva I Qarabağ müharibəsində şəhid olan həyat yoldaşı Zahid Əhmədovu son nəfəsində görə bilməməsindən danışıb.***

Axşam.az xəbər verir ki, müğənni bu haqda "1 dəqiqə" proqramında danışıb. O bildirib ki, həyat yoldaşı pis vəziyyətdə olduğu üçün valideynləri onu onun yanına qoymayıb:

"Qaynatamgil qoymadı. Dedilər ki, gəlmə, vəziyyəti çox pisdir. İstəmir ki, sən onu o vəziyyətdə görəsən. Guya həyat yoldaşım deyib ki, gəlməsin, məni belə görməsin. Dəhlizdə o yana, bu yana gedirdim. Fikirləşirdim ki, bəlkə imkan olar orada kimsə olmaz, heç olmasa içəri girib görərəm. İki şəkil, 317 gün, bərabərdir bir ömürə...

Mənim bu həyatda qalmağımın səbəbkarı, məni ayaqda tutan, bu qədər güclü olmağa sövq edən, güclü göstərən, bu gün də mənim arxam, dayağım, sirdaşım, dostum - oğlumdur. O, kiçik olanda da həmişə dərdləşirdik. Balaca olsa da, mənə sirdaş idi.



Mənə illər sonra dedilər ki, məni sayıqlayır. Çağırırmış ki, sözüm var, Rüfəti (oğlunu-red.) ona tapşırım. Heç kəs məni çağırmadı. Çox təəssüf ki, onun sözünü, son nəfəsini, istəyini eşidə bilmədim. Buna imkan olmadı".

Qeyd edək ki, ötən ilin sentyabrında G.Əliyeva şəhid həyat yoldaşı - Zahid Əhmədovun Cəbrayıl rayonundakı məzarını 30 ildən sonra ziyarət edə bilib.

# "Bahalaşmadan məlumatsızam" - Elnarə Abdullayeva



***"Mənim heç vaxt toy qiymətim olmayıb, kim nə veribsə, ona qane olmuşam. Toy qiymətlərimi qaldırmamışam ki, indi də endirəm".***

"Unikal" xəbər verir ki, bunu qaynarinfo-ya açıqlamasında əməkdar artist Elnarə Abdullayeva Rusiyada toy qiymətlərindən danışarkən deyib.

Sənətçi həmişə Rusiyaya toy məclislərinə dəvət aldığını deyib: "Toyum olmasa, çıxıb gələcəyəm. Azərbaycandan da toya dəvətlər alıram. Başımızı aşağı salıb gedirik. Mən dərə-təpə ilə yox, qatarla gedirəm. Harada dayanacaqsa, dayansın. Rusiyada çox yüksək səviyyədə konsert proqramlarım keçir. Hazırda müxtəlif şəhərlərdə görüşlərimiz də davam edir. Yanvar ayında Rusiyada böyük konsert proqramım nəzərdə tutulmayıb".

Elnarə Abdullayeva Bakı tamaşaçılarını da yaddan çıxartmadığını deyir: "Bakıda 3 günlük konsert proqramlarım olub. İndi pandemiya olduğundan belə konsertlərim təxirə düşüb. Vəziyyət tamam düzəlsin, pandemiya bitsin, sonra bu barədə qərar verəcəyəm".

Rusiyada bahalaşma ilə bağlı vəziyyət necədir sualına xanəndənin cavabı belə oldu: "Bahalaşmadan məlumatsızam. Çünki bazara-dükana getmirəm, heç nəyin qiymətini bilmirəm".

# "Ailə üzvlərim yeni ştama yoluxub" - Aysel Əlizadə



***"Ailəmizdə bir neçə insan yeni ştama yoluxub. Ailə üzvlərinizə diqqət yetirin. Evinizdə körpələr, yaşlılar varsa, özünüzə diqqət yetirin ki, daşıyıcı olmayasınız".***

Bu sözləri müğənni Aysel Əlizadə deyib. Ailə üzvlərinin yeni ştama ("omicron") yoluxduğunu bildirən ifaçı dərmanların bahalığından gileylənib: "Heç də boş bir xəstəlik kimi yanaşmayın. Bilmirəm immun sistemim buna qalib gələcək, ya yox. İnşallah, mən yoluxmaram. Sadəcə olaraq küçədə xəstə gəzən insanlar etməsin. Çox ağır keçir. Koronavirusa yoluxanlarda immunitet zəifləyir. Bir müddət əvvəl mən də yoluxdum. Hələ reseptin yüzdə onunu almışam 200 manatdan çox ödəmişəm. Bunları nəzərə alaraq deyirəm ki, xəstəsinizsə evdə otu-run. Çıxıb insanların canına salmayın. Vicdanla düşünün. Bu gün qazanıb nəsə ödəyirsiz. Ayda 200-300 manat maaşa işləyənlər var ki, bu gün onu ödəyə bilmir".

# Anasından danışıb studiyadakı hər kəsi ağlatdı



***"Valideyn cənnət qapısıdır. O qapılardan istifadə etmək lazımdır. Cənnətə girmək istəyirsənsə, valideynə qulluq et".***

Bu sözləri aktyor Ənvər Abbasov "Təsir dairəsi" proqramında deyib. Dünyasını dəyişən anasından danışan sənətçi studiyada olan hər kəsi ağladıb:

"Mənim qapılarımın biri bağlıdır, digəri açıq. Anamın məzarına gedib, onunla danışıram. Hər dəfə də ağlayıb gedirəm evə. Onunla olduğumuz yerlərə bir də getmirəm. Nə qədər ki, sağdır, hər iki valideynlərinizin qədrini bilin. Çünki siz də qocalacaqsınız, insan nə edirsə, başına gəlir. Valideynə necə olacaqsansa, övlad da sənə elə olacaq. Sağ ikən qədrini bilmək lazımdır".




# Həbsdə olan sabiq icra başçısının məhkəməsi keçirildi

***Lənkəran Ağır Cinayətlər Məhkəməsində Cəlilabad rayon İcra Hakimiyyətinin sabiq icra başçısı Namiq Zeynalovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.***

"Unikal" xəbər verir ki, hakim Xamməd Nuriyevin sədrliyi ilə keçirilən iclasda ilk olaraq təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Vəkillər sabiq icra başçısı barəsində seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəzlənməsi barədə vəsatət versə də, məhkəmə vəsatəti təmin etməyib.

Məhkəmənin baxış iclası yanvarın 18-ə təyin olunub.

İttihama görə, Namiq Zeynalov Cinayət Məcəlləsinin 179.2.2 (Mənimsəmə və ya israf etmə təkrar törədildikdə) 179.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə); 179.2.4 (xeyli miqdarda ziyan vurmaqla törədildikdə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3 (külli miqdarda rüşvət alma), 311.3.2 (təkrar rüşvət alma), 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunub və Cəlilabad Rayon İcra Hakimiyyətində keçirilən xüsusi əməliyyat zamanı saxlanılıb.

# Azərbaycanda dollar bahalaşacaq? - Deputatdan açıqlama

***"Regional valyuta bazarında dəyişikliklər fonunda manatın məzənnəsinin necə dəyişəcəyinə gəldikdə, milli valyutamızın kursuna təsir göstərən əsas iqtisadi faktorlar ölkəyə daxil olan valyutanın həcmi, eyni zamanda Dövlət Neft Fondu tərəfindən hərraca çıxarılan valyutanın məbləğidir".***

Bunu "Unikal"a açıqlamasında iqtisadçı deputat Vüqar Bayramov deyib. Deputat bildirib ki, valyutaya olan tələbin əhəmiyyətli hissəsi Dövlət Neft Fondu tərəfindən ödənilir. "Bu baxımdan Dövlət Neft Fondunun hərraca çıxartdığı vəsaitlərin həcmi dollara olan tələbin ödənilməsində çox önəmlidir. Bu da təbii ki, manatın məzənnəsi baxımından vacib hesab olunur. Nəzərə alsaq ki, xarici ölkələrdəki tərəfdaşlarımızda milli valyutaların məzənnələrinin dəyişməsi ən azı psixoloji faktorlardan hesab olunur. Azərbaycanda hələ ki, üzən məzənnə rejiminə keçirilməyib. Praktiki olaraq, manatın məzənnəsi birbaşa Azərbaycan Mərkəzi Bankının yanaşmasından asılıdır. Nəticə etibarilə, Mərkəzi Bank prosesə birbaşa intervensiya etmək imkanlarını qoruyub saxlayır. Ona görə də bu il manatın məzənnəsinin necə dəyişməsi birbaşa Azərbaycan Mərkəzi Bankının mövqeyindən asılı olacaq".

***Anar Kəlbiyev***

# Televiziyalarımızın səhvləri

***"Televiziyaların monitorinqi zamanı 6000-dən çox səhv aşkarlanıb".***

"Unikal" xəbər verir ki, bu barədə Trend-ə Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva deyib. Onun sözlərinə görə, televiziyaların monitorinqinin emal prosesi başa çatıb, yaxın vaxtlarda hesabat ictimaiyyətə açıqlanacaq.

S.Əliyeva bildirib ki, ümumi səhvlərin 4800-ü hesabatda əksini tapıb: "Amma ən çox təəssüf doğuran məqam odur ki, bunun təxminən 1500-ü üslub səhvidir. Hər bir aparıcının özünün televiziyaya gətirmək istədiyi üslub var. Təsəvvür edin ki, televiziya qarşısında oturan tamaşaçı aparıcının üslubunda Azərbaycan dili ilə tanış olur".

Mərkəzin direktoru deyib ki. ikinci narahatlıq doğuran məsələ aparıcının səviyyəsi, efirdə olduğunu unutması, dəvət etdiyi qonaqla istədiyi səviyyədə danışmasıdır: "2-3 kanaldan başqa, demək olar ki, bütün kanallarda bunu müşahidə edirik".

# Hacıbala Abutalıbov müamması...

## Keçmiş mer qalmaqallı cinayət işindən necə qurtuldu?

***Bakı şəhər İcra Hakimiyyətinin (BŞİH) keçmiş Aparat rəhbəri, bir müddət icra başçısının müavini səlahiyyətlərini icra etmiş Rasim Quliyevin cinayət işi üzrə məhkəmə prosesi yekunlaşdı: o, 3 il müddətinə azadlıqdan məhrum edildi. Hökmdə qeyd olunub ki, R. Quliyev 1 il 6 ay rəhbər və maddi məsul vəzifə tuta bilməz.***

Ona elan edilən ittihamlarla razı olmadığını, barəsində bəraət hökmünün çıxarılmasını xahiş edən sabiq Aparat rəhbəri məhkəmədəki son sözündə bunu söyləməyi də unutmadı: "Bu işdə bir zərərçəkən var, o da mənəm və ailəmdir".

Əslində R.Quliyevə verilən həbs cəzasının müddəti bir çoxlarını haqlı olaraq təəccübləndirib: axı ona Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 314-2.3-cü (qanunla müəyyən olunmuş qaydaları pozmaqla tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan edilmişdi. Bu səbəbdən də hesab olunurdu ki, keçmiş Aparat rəhbəri daha ağır cəza alacaq.



Lakin belə olmadı və prokurorun 6 il cəza istədiyi R.Quliyevə bunun yarısı qədər həbs qərarı verildi.

Sözügedən cinayət işi və məhkəmə prosesi barədə ən ilginc nüans isə, heç şübhəsiz, Bakının eks-meri Hacıbala Abutalıbovun adının da tez-tez gündəmə gəlməsi idi. Belə ki, sabiq Aparat rəhbəri onun ünvanına ilginc iddialar səsləndirirdi. Məsələn, R.Quliyev məhkəmə iclaslarının birində Hacıbala müəllimin BŞİH rəhbərinin bu vəzifəsindən getdikdən sonra da qurum üzərində təsir imkanlarını saxladığına dair çarpıcı ifadə verib, bir çox qanunsuz qərarlara imza atılmasını, dolayı yolla da olsa, etiraf eləmişdi. Başqa bir məhkəmə prosesində isə paytaxtın İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsinin rəis müavini və Baş memarı olmuş Akif Abdullayev normal məntiqlə izah edə bilməyəcəyimiz, kifayət qədər qalmaqallı fikirlər dilə gətirmişdi. Demişdi ki, hansısa bina tikintisinə icazə verilərkən daxil olan sənədə icazə verilərdə sənədləri araşdırmağa ixtiyarı olmayıb: "Memarlıq və Şəhərsalma Baş İdarəsinin səlahiyyətləri tikinti üzrə sənədləri araşdırmaqla bağlı idi. Hacıbala Abutalıbov sənədləri araşdırıb qərara gələndən sonra rəylər bizə daxil olurdu, biz də razılıq verirdik". O əlavə eləmişdi ki, Bakı şəhər İcra Hakimiyyətinə daxil olan müraciətlərə mənfi rəy verilməyib: "Yerli icra hakimiyyəti rəy bildirirdi, Bakı Şəhər İcra Hakimiyyəti sərəncam verirdi". Hakimin "Kimsə müraciət etsə ki, Qız Qalasını sökün, sökəcəkdiniz" sualına A.Abdullayevin cavabına isə adam bilmirdi gülsün, yoxsa ağlasın: "Lazım olsa, rəy alıb onu da sökmək olar"...

Bu deyilənlər Abutalıbovun BŞİH-ə rəhbərlik etdiyi dövrdə meriyada hansı iş mühitinin, əhval-ruhiyyənin hökm sürdüyünü aydın şəkildə gözlər önünə sərirdi.

Ancaq maraqlıdır ki, Hacıbala müəllim keçmiş Aparat rəhbərinin məhkəmə proseslərində verilən bütün bu çarpıcı, skandal xarakterli ifadələr, həmin ifadələrdə bu və ya digər formada onun özünü də töhmət altında qoyan açıqlamalar barədə inadla susdu. Halbuki bir müddət əvvələdək eks-mer özü barədə mətbuatdakı ən xırda tənqidə, ittihama da cavab verməyə çalışır, ictimai rəydə özü barədə "süddən çıxmış ağ qaşıq" təəssüratı yaratmağa çalışırdı. Elə isə BŞİH-in sabiq başçısının kifayət qədər hay-küylü iddialar, ittihamlar barədə susqunluq nümayiş etdirməsinin səbəbi nə idi? Məsələn, övladlarının biznesi barədə KİV-in yazdıqlarına "Mənim övladlarımdır deyə özlərinə iş qura bilməzlər?" deyə üsyan edən, sərvəti barədə mətbuatdakı məlumatları tələm-tələsik inkar etməyə çalışan sabiq mer özünün sabiq kadrının, eləcə də digər işçilərinin məhkəmədə söylədikləri qarşısında niyə səssizlik nümayiş etdirdi? Bəlkə bununla o, adının R.Quliyevlə bağlı məhkəmə prosesindən mümkün qədər uzaq qalmasına çalışır? Elə isə başqa bir sual meydana çıxırdı: niyə? Yoxsa bu hüquqi prosesin sonda onun özünədək uzana biləcəyindən əndişəlidir?!

Hər halda bu gün Abutalıbovu ya birbaşa, ya da dolayı şəkildə gündəmə gətirən media deyildi, jurnalist araşdırmaları deyildi, onun öz kadrlarının məhkəmə səviyyəsində dilə gətirdiyi və bir daha vurğulayaq ki, kifayət qədər səs-küylü, qalmaqallı ifadələr idi. Onun həmin deyilənlərə gedib hakim qarşısında olmasa belə, KİV-də aydınlıq gətirməsi, münasibət bildirməsi doğru olmazdımı? Əlbəttə, olardı! Axı o övladlarının biznesi barədə KİV-in yazdıqlarına "Mənim övladlarımdır deyə özlərinə iş qura bilməzlər?" deyə üsyan edən, sərvəti barədə mətbuatdakı məlumatları tələm-tələsik inkar etməyə çalışan bir eks məmurdur. Bəs onda R.Quliyevin məhkəmə prosesindəki qalmaqallı bəyanları niyə görməzdən və eşitməzdən gəldi?! Özü də bilə-bilə ki, bu susqunluq haqqındakı ittihamlarla razılaşmaq kimi də qiymətləndirilə bilər...

Yuxarıdakı suallara cavab verməkdə və ya tapmaqda çətinlik çəkirik. Bircə o maraqlıdır ki, məlum məhkəmə prosesinin sonlarına doğru Abutalıbovun adı yavaş-yavaş, lap axırda isə tamam unuduldu. Onu nə sabiq Aparat rəhbəri, nə də digərləri xatırladı.

Ən maraqlısı isə bunun fonunda R.Quliyevin gözlənildiyindən xeyli az cəza alması oldu.

Görünür, həyatda təsadüfün olmadığını düşünənlər çox haqlıdırlar - hər şey əslində zərurətdən doğur...

***Toğrul Əliyev***

# Böyük güclərin yeni savaşı, yoxsa...



***Qazaxıstanda maye qazın qiymətinin artmasına görə yanvarın ilk günlərindən başlayan etiraz aksiyaları ölkədə qarşıdurmalara, qanlı toqquşmalara səbəb olub. Hökumət məsələnin araşdırılıb çıxış yolu tapılmasını vəd etsə də, yanvarın 5-də etirazçılar Qazaxıstan prezidenti Kasım-Jomart Tokayevin iqamətgahını ələ keçiriblər.***

Daha sonra etirazçılar geri oturdulub. Onlarla etirazçı məhv edilib və onların şəxsiyyəti müəyyənləşdirilir. Ölkə prezidentinin iqamətgahı xüsusi təyinatlılar tərəfindən qorumaya alınıb. Prezident Kasım-Jomart Tokayevin müraciətindən sonra Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) kollektiv sülhməramlı qüvvələri artıq Qazaxıstana göndərilib.

Məsələylə bağlı "Unikal"a açıqlama verən politoloq Elxan Şahinoğlu deyib ki, Qazaxıstan prezidenti Tokayevin Rusiya və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına müraciətinin sadə səbəbi var. Onun fikrincə, Tokayev Qazaxıstan polisinin və ordusunun etirazları yatırtmağa gücü çatmayacağından, ən pis halda isə etirazçıların tərəfinə keçəcəyindən qorxduğu üçün Moskvaya müraciət etdi: "Ordu və polis həmişə güclünün yanında yer alır. Güclər arasında nisbət dəyişəndə ordu və polis düşünməyə başlayır və verilən əmrləri dəyişən nisbətə görə icra edir. Uzaq və yaxın tarixdə baş verən inqilablar da bundan xəbər verir. Tokayevin qorxusu əsassız deyildi, bəzi yerlərdə polis işçiləri etirazçılara qoşulmuşdular və bu prosesin getdikcə genişlənməsi ehtimalı yüksək idi. Tokayev hakimiyyəti qorumaq üçün bu vəziyyətdə Moskvadan yardım istədi. Ancaq bu yardım və hadisələrin bundan sonrakı inkişafı Qazaxıstan üçün yeni təhlükələr yaradacaq".

Müsahibimiz qeyd edib ki, hadisələrin içəridən necə qiymətləndirilməsi ilə bağlı rəylər vacibdir: "Görünən odur ki, yanacaq qiymətlərinin qaldırılmasıyla spontan başlayan etirazlar sistemli şəkil almağa başlayıb. Etirazçıların ilk sosial tələbləri yerinə yetirilsə də, tələblər artıb və siyasiləşib. Belə olan halda vəziyyət daha da gərginləşəcək. Prezident Tokayevin iki çıxış yolu var. Birinci yol etirazçılarla dialoqu davam etdirməkdir. Ancaq bu halda təminat yoxdur ki, etirazçılar evlərinə dönəcəklər. Əksinə etirazçılar hakimiyyətin onlarla hesablaşdığını görüb tələblərinin sayını artıracaqlar. Bu sırada prezidentin istefası, parlamentin buraxılması və yeni seçkilərin keçirilməsi tələbləri dayanacaq. İkinci yol etirazı ordu və polisin gücü hesabına yatırtmaqdır. Ancaq bu yol tələfata və növbəti gərginliyə qədər avtoritarizmin gücləndirilməsinə aparacaq ki, Qazaxıstan üçün bu halda nəticənin necə olacağını söyləmək çətindir.

Ən çox səslənən sual budur: Hazırkı hadisələrin arxasında xarici qüvvələr dayanırmı? Rusiyanın adını hallandırmağa başlayıblar. Əlbəttə, Kremlin Qazaxıstanda çoxdan gözü var. Təsadüfi deyil ki, başda Kreml sahibi Vladimir Putin olmaqla rusiyalı siyasətçilərin bir qismi Qazaxıstan adında dövlətin Rusiya torpaqları üzərində qurulduğunu iddia edirlər. Ancaq Qazaxıstanı qarışdırmaq Kremlə nə verəcək? Qazaxıstanın hazırkı hakimiyyəti Rusiya ilə birgə bütün ittifaqlarda yer alıb, Kremlin ideyaları əleyhinə getmir. Kreml Nazarbayev-Tokayev cütlüyünü niyə devirsin ki?

Qərb dövlətlərinə gəldikdə Vaşinqtonun və Brüsselin Qazaxıstanı qarışdırmaq üçün əllərində kifayət qədər alət yoxdur. Digər tərəfdən ABŞ və Avropa İttifaqının Qazaxıstanda xaos yaratmaqda marağı yoxdur. Çinə gəldikdə isə Pekinin son zamanlar Astana ilə münasibətlərində gərginlik var idi. Çin sentyabr ayı ərzində Qazaxıstanla sərhəddə idxal-ixrac əməliyyatlarında süni gərginlik yaratmışdı. Pekin Qazaxıstanın uyğurlara istı münasibətindən narazıydı. Pekin türkdilli Qazaxıstanın türkdilli uyğulara işgəncə verməsinimi gözləyirdi?

Moskva və Pekin Qazaxıstandakı olaylarla əlaqəli olmasalar da, Qazaxıstanın asılı dövlət kimi idarə olunmasında maraqlıdırlar. Qazaxıstanda sabitlik pozularsa və xaos artarsa Rusiya və Çinin bu ölkəyə müdaxilə etməsi ehtimalı artacaq. Türkiyə də hadisələri kənardan izləyir. Ancaq son hadisələr göstərir ki, Qazaxıstanı zəiflətmək, ən pis halda isə parçalamaq həddinə gətirərsə Ankara seyrçi qala bilməyəcək".

"Unikal"a açıqlamasında politoloq Zərdüşt Əlizadə deyib ki, Qazaxıstanda baş verən hadisələrin kökündə hakim siyasi zümrənin ölkənin gəlirlərinin böyük hissəsini öz üzərinə götürməsi, az payını isə xalqa verməsidir. Onun fikrincə, bu ədalətsiz bölgü xalqda etiraz yaradır: "Yəni, onlar görürlər ki, Qazaxıstanın hakim siyasi zümrəsi multi-milyarderdir. Məsələn, bizdə 2-3 nəfər milyarder varsa, bu say Qazaxıstanda dəfələrlə çoxdur. Onların da bir hissəsi köçüb, qərbdə yaşayır. Düşünürəm ki, Qazaxıstan hakimiyyəti ədalətli bölgü aparmalıdır. Qazaxıstan əhalisi kasıb yaşayır. Onlar bizim əhalidən varlı yaşayırlar, amma ümumilikdə götürəndə orta səviyyədədir. İş yox, sənaye çöküb, kənd təsərrüfatı inhisarlaşıb. Bizdəki proseslər orada da gedir. Orada avtomobil sürücüləri maşınlarını qazla işlədirlər. Qazın qiyməti 50 tenge idi, 120 tengeyə qaldırıblar. Məgər, 120 tenge böyük puldur? 120 tenge təxminən 20 rus rubluna bərabərdir. Amma bu, Qazaxıstan əhalisi üçün yüksək qiymətdir. Ona görə də camaat etiraza çıxıb. Oradakı müxalifət bizdə olduğu kimi çox gücsüzdür. Camaat etiraza çıxanda, müxalifət də bundan istifadə edib, başlayıb istefa tələb etməyə. 200-dən çox etirazçı həbs edilib və barbarlıq halları da olub, lakin polislərin bir hissəsi zorakılıqdan imtina edib. Bu, Qazaxıstan hakimiyyəti üçün olduqca vacib işarədir. Onlar hakimiyyətə sadiq olmayan kadrları kənarlaşdırmalıdırlar. Görünür ki, Qazaxıstanda hakim zümrənin daxilində də çox böyük gərginlik var, amma bu hadisələri şübhəsiz ki, yatıracaqlar.

İndi hakimiyyət daxilində çat yaranıb, bəziləri də kasıb camaatdan istifadə edərək hakimiyyəti devirmək istəyirlər. Mən əminəm ki, əgər bunu bacarsalar belə, yenə də itirən Qazaxıstan xalqı olacaq. Avtoritar ölkələrdə bu cür olur. Belə ölkələrdə prezidentlər və baş nazirlər bu məsələləri həll edirlər. Eyni zamanda onu da qeyd etməliyik ki, burada xarici faktorlar da var. Qazaxıstanın solunda Rusiya, sağında Çin, həmçinin Amerika və Avropa da var. Hansısa dolayısı yolla, hansı malın qiymətinin artması ilə, ideoloji təsirlərlə bunu edirlər. Xalqa demokratiya və ciblərinin pulla dolacağı ilə bağlı nağıllar danışırlar. Camaatın savadı da kifayət qədər deyil. Qulaq asır, amma lazımi səviyyədə qiymətləndirə bilmir. Mən inanmıram ki, Qazaxıstan camaatının siyasi şüur səviyyəsi Azərbaycan, Rusiya və yaxud Amerika camaatından yüksək olsun".

Hadisələri şərh edən Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov bildirib ki, Qazaxıstandakı proseslərin sonunu proqnozlaşdırmaq çətindir: "Amma hiss olunur ki, orada bir çox xarici ölkələrin, oyunçuların maraqları var. Bəzən elə bir təəssürat yaranır ki, bəzi qərbyönlü və ya rusiyayönlü qüvvələr hansısa şəkildə eyni ssenari üzərində işləyirlər. Bu kimi halı biz Belarusda görmüşük. Qazaxıstanda çox mürəkkəb situasiya yaranıb. Hiss olunur ki, orada hansısa oyunçuların oyunları gedir".

T.Zülfüqarov onu da qeyd edib ki, hadisələrə təkcə qiymətlərin qalxmasının səbəb olmadığı aydın görünür: "Hansısa digər məqsədlər var. Bir şeyi qeyd etmək lazımdır ki, uzun müddət Qazaxıstanın dövlət başçısı olmuş Nursultan Nazarbayev həmişə Azərbaycanın dostu kimi çıxış edirdi. Bu baxımdan siyasi zirvəyə gələn qüvvələrin Azərbaycanla münasibəti də çox vacib bir mövzudur. Hesab edirəm ki, bizim münasibətimiz bu meyarla ölçülməlidir. Hazırda Qazaxıstanda gərginlik artmaqdadır. Narahatedici məsələ ondan ibarətdir ki, artıq xarici hərbi qüvvələrin ölkəyə cəlb olunması prosesi baş verir. Bu da təbii ki, vəziyyəti daha da mürəkkəbləşdirəcək".

Politoloq bildirib ki, Türkiyə və Rusiya hansısa əlaqələrin təcrübəsini istifadə edərkən, rəsmi Ankara da vəziyyəti sabitləşdirmə məsələsində öz rolunu oynaya bilər. "Çünki biz görürük ki, uzun müddətdir Türkiyə və Rusiya bir sıra məsələlərdə əməkdaşlıq edirlər. Bu, özünü bizim regionda və digər bölgələrdə, o cümlədən Suriyada göstərdi. Yaxşı olardı ki, Türkiyə Qazaxıstandakı proseslərə cəlb olunsun və hansısa stabilləşmə məsələlərində iştirak etsin".

T.Zülfüqarov Çinin Qazaxıstan hadisələrində əsas oyunçulardan biri olduğunu hesab edir: "Çünki biz bilirik ki, bu ay ABŞ və Rusiya arasında təhlükəsizlik barəsində danışıqlar başlayacaq. Bəziləri bunu Çin mövzusuna aid edirlər. Rusiya Çin və Qərblə geniş müzakirələr aparır. Bu məsələdə öz mövqeyini müəyyənləşdirmək, hansısa imtiyazlara nail olmaq üçün imkanlardan istifadə edir. Hər kəs anlayır ki, Çin-ABŞ qarşıdurmasında Rusiyanın mövqeyi çox vacibdir. Hiss olunur ki, Rusiya da bu məqamdan istifadə etmək niyyətindədir. İstisna deyil ki, Rusiya Qazaxıstan mövzusunda da bu cür taktika tətbiq edəcək. Çin bu məsələdə maraqlarını qorumaq üçün hansısa siyasət həyata keçirəcək. Çünki bu, Çin üçün əhəmiyyətli mövzudur".

***Z.Məmmədli***

# Prezident və birinci xanım "Xanım Fatimeyi Zəhra" məscidində



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin yeni binasında yaradılan şəraitlə tanış olublar.***

"Unikal" xəbər verir ki, məscidin qəzalı vəziyyətdə olan əvvəlki ikimərtəbəli binasında dindarların ibadəti üçün heç bir şərait yox idi. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdi. İbadət edənlərin sayı çox olduğundan, məscidə üz tutanlar məcbur qalıb açıq havada ibadət edirdilər. Odur ki, qəsəbədə daha müasir və geniş məscid kompleksinin tikintisinə ehtiyac yaranmışdı.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, məscid kompleksi üçün müasir konsepsiya hazırlanıb və yeni bina inşa olunub.

İndi isə məsciddə, eyni zamanda, 1800 nəfərin ibadət etməsi mümkün olacaq. Yeni məscid kompleksində kişilərin və qadınların ibadəti üçün bütün zəruri şərait yaradılıb. Kompleksin inşası zamanı Abşeron məscidlərinin memarlıq üslubuna uyğun elementlərdən istifadə olunub. Buraya ağac materialından hazırlanmış şəbəkələr də daxildir.

Məscid kompleksinin diametri 4 metr və hündürlüyü 42 metr olan iki minarə və hündürlüyü 25 metr olan günbəz bəzəyir. Kompleksə dindarların dəstəmaz alması, dini ayinlərin keçirilməsi üçün xüsusi binalar da daxildir.

Məsciddə mərkəzləşdirilmiş havalandırma sistemi yaradılıb, ətraf ərazi yaşıllaşdırılıb.

Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin müasir kompleksinin istifadəyə verilməsi bir daha sübut edir ki, İslam mədəniyyəti ilə bağlı tarixi-memarlıq abidələrinin, müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpası ölkəmizdə dövlət siyasətinin vacib tərkib hissələrindəndir.

# Koronavirusa yoluxanların sayı azaldı - 13 nəfər öldü

***Azərbaycanda bu gün koronavirus infeksiyasına 584 yeni yoluxma faktı qeydə alınıb, 851 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkadan 13 nəfər COVID-19-dan dünyasını dəyişib.

# Ərdoğan Qazaxıstan prezidenti ilə telefonla danışdı

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə prezidentinin mətbuat katibliyi məlumat yayıb. Liderlər Qazaxıstanda baş verənləri müzakirə ediblər. Telefon danışığı zamanı Ərdoğan Qazaxıstanda yeni hökumətin formalaşmasının vəziyyətə müsbət şəkildə təsir edəcəyinə ümidini ifadə edib.

Bundan əlavə R. T. Ərdoğan sözügedən ölkədəki prosesləri Türk Dövlətləri Təşkilatının dönəm sədri olaraq təşkilata üzv ölkələrin liderləri ilə müzakirə edib.

# Təhsil haqqını ödəməyən tələbələrin adı divara vuruldu - RƏSMİ AÇIQLAMA

***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) təhsil haqqını ödəməyən tələbələrin adlarının divara vurulması məsələsinə münasibət bildirib.***

Universitetdən verilən məlumata görə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) bakalavr təhsil pilləsində bütün ödənişli ixtisaslar üzrə illik təhsil haqqı 1800 manatdır.



Universitetə ödənişli əsaslarla qəbul olan tələbələrlə bağlanmış fərdi müqavilənin "Ödəniş qaydaları" bölməsinə əsasən, onlar ödəmənin qaydalarıyla tanış olur və müvafiq imzayla şərtləri qəbul etdiklərini təsdiqləyirlər: "Bununla belə, ADMİU rəhbərliyi təhsil haqqına görə dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, heç bir tələbəni universitetdən xaric etmir, humanist yanaşaraq onlara təhsil haqqını ödəməsi üçün müəyyən edilmiş zamandan daha uzun müddət vaxt verir. Sözügedən siyahıya nəzər saldıqda görmək olar ki, həmin siyahıda 3600 AZN, 3500 AZN, 3352 AZN kimi böyük məbləğlər var. Bu da təhsilinin III və ya IV ilində olan tələbənin 2 (iki) təhsil ilinin haqqını ödəmədiyi halda, kursdan kursa keçirilməsində universitet rəhbərliyi tərəfindən bir problem yaradılmadığının sübutudur. Bu şəxslərin arasında xüsusi imtiyazlı tələbələr yoxdur.

Sosial şəbəkələrdə ADMİU ilə bağlı yazılmış iddialar əsassızdır. Bildiririk ki, görüntüləri yayımlanmış siyahı universitetdə nümayiş etdirilməyib. Universitet rəhbərliyinin təhsil haqqını ödəməyən tələbələrin siyahısının nümayişiylə bağlı heç bir tələbi olmayıb. Bu siyahı semestr imtahanları öncəsi sadəcə bir fakültənin dekanlıq daxilində tyütorlar və mühasibatlıq üçün məlumat xarakterli hazırlanmış siyahısıdır. Daxili sənədin şəklinin çəkilərək yayılması təəssüf doğrurur".

Qeyd edək ki, bu gün sosial şəbəkələrdə universitetdə təhsil haqqı ödəməyən tələbələrin adlarının divara vurulması ilə bağlı fotolar paylaşılıb.

# Müdafiə Nazirliyi ilə Ombudsman Aparatı birgə tədbirlər planı imzaladı

***Müdafiə Nazirliyi ilə Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı arasında 2022-ci il üçün birgə tədbirlər planı imzalanıb.***

Nazirlikdən "Unikal"a bildirilib ki, plana əsasən keçirilməsi nəzərdə tutulan tədbirlərin icra vaxtı, keçirilmə yeri və məsul şəxslər müəyyən edilib.

İl ərzində Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində təşkil ediləcək tədbirlərdə hərbi qulluqçuların hüquqlarının müdafiəsi, insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar bir sıra görüşlər keçiriləcək, eləcə də müxtəlif mövzularda məruzələr dinləniləcək və fikir mübadiləsi aparılacaq.



# Ərdoğan Qazaxıstan prezidenti ilə telefonla danışdı

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə prezidentinin mətbuat katibliyi məlumat yayıb. Liderlər Qazaxıstanda baş verənləri müzakirə ediblər.



Telefon danışığı zamanı Ərdoğan Qazaxıstanda yeni hökumətin formalaşmasının vəziyyətə müsbət şəkildə təsir edəcəyinə ümidini ifadə edib. Bundan əlavə R. T. Ərdoğan sözügedən ölkədəki prosesləri Türk Dövlətləri Təşkilatının dönəm sədri olaraq təşkilata üzv ölkələrin liderləri ilə müzakirə edib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# Əjdər Olun məhkəməsi keçirildi

***Bakı Ağır Cinayətlər Məhkəməsində rüşvət almaqda təqsirləndirilərək həbs edilən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sabiq aparat rəhbəri Əjdər Cəbiyevin (Əjdər Ol) cinayət işi üzrə məhkəmə prosesi başlayıb.***

"Unikal"ın məlumatına görə, hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən hazırlıq iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmənin baxış iclası yanvarın 12-nə təyin olunub.

Cinayət işi üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi zərərçəkmiş qismində tanınıb.

Qeyd edək ki, Əjdər Cəbiyev Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları tərəfindən saxlanılıb. O, külli miqdarda rüşvət almaqda ittiham olunur. Onun barəsində istintaq orqanının təqdimatı əsasında Səbail rayon Məhkəməsi tərəfindən həbs qətimkan tədbiri seçilib.



# Unun və çörəyin bahalaşması rəsmiləşdi



***İqtisadiyyat Nazirliyinin Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti un və çörək istehsalçıları ilə birlikdə bu məhsulların qiymətlərinin yuxarı hədlərini müəyyənləşdirib.***

"Unikal" xəbər verir ki, bu barədə qurum açıqlama yayıb. Məlumatda deyilir ki, son dövrdə dünyada baş verən iqtisadi proseslərin və COVİD-19 pandemiyasının təsirləri, 2021-ci il ərzində dünya bazarlarında ərzaqlıq buğdaya tələbin artması və buğda istehsalçısı olan ölkələrin daxili bazarı qorumaq məqsədilə həyata keçirdiyi müxtəlif proteksionist tədbirlər fonunda ərzaqlıq buğdanın qiyməti kəskin artıb. Əlavə olaraq, ən böyük ərzaqlıq buğda istehsalçılarından biri və Azərbaycana ixrac edilən buğdanın əsas mənbə ölkəsi olan Rusiyanın ötən ilin fevral ayından yüksək ixrac rüsumları tətbiq etməsi səbəbindən ölkəmizə idxal olunun ərzaqlıq buğdanın qiymətində 2019-cu illə müqayisədə təxminən 58% artım baş verib.

Azərbaycanda ərzaqlıq buğdanın, unun və çörəyin qiyməti tənzimlənən tariflər əsasında deyil, bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq tələb-təklif əsasında formalaşır. Ötən il ərzaqlıq buğdanın dünya üzrə kəskin bahalaşmasının Azərbaycana təsirinin azaldılması məqsədi ilə hökumətin ayırdığı böyük subsidiyalar hesabına buğda və unun qiymətləri real qiymətlərdən aşağı saxlanılmıb. Təbii olaraq, subsidiyalar hesabına bu qiymətlərin uzunmüddətli dövrdə liberal iqtisadi tələblərə zidd olaraq qeyri-real səviyyədə saxlanılması mümkün deyil.

Nəticədə cari ilin əvvəlindən etibarən ərzaqlıq buğda tədarükü və un istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri unun qiymətini ərzaqlıq buğdanın hazırkı idxal qiymətinə uyğunlaşdırıb. Satış bazarında qiymət manipulasiyalarına yol verilməməsi məqsədi ilə preventiv tədbir olaraq, Dövlət Xidməti bir sıra iri ərzaqlıq buğda idxalçıları, həmçinin un və çörək istehsalçıları ilə müzakirələr aparıb və prosesin nəzarətdə saxlanılması təmin edilib.

Belə ki, idxal qiymətləri və emal xərcləri nəzərə alınmaqla, hazırda bu məhsula real qiymət formalaşmış, un və çörək istehsalçıları ilə qiymətlərin yuxarı hədləri müəyyənləşdirilib: 50 kq-lıq bir kisə unun topdansatış qiyməti - 35,9 manat, 500 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti - 50 qəpik, 650 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti - 65 qəpik.

Dövlət Xidməti qiymət hədlərinə əməl olunması üzrə ciddi nəzarət tədbirlərini davam etdirir. İlk günlərin monitorinqlərinin nəticələrinə əsasən, unun topdansatış qiyməti 35,4- 35,9 manat arasında dəyişir.

Hazırda Dövlət Xidməti un istehsalçılarının topdansatış məntəqələri və məntəqələri, iş vaxtları və topdansatış qiymətlərinə dair mütəmadi şəkildə yenilənəcək məlumat bazası hazırlayır və bu gün ictimaiyyətə açıqlanacaq.

İstehlakçılar un və çörək bazarında qiymət manipulasiyası halları ilə rastlaşdıqda, həmçinin əlaqəli məlumat almaq məqsədi ilə Dövlət Xidmətinə müraciət edə bilərlər: əlaqə telefonu: (+99412)-599-76-00.

# Məşğulluq Mərkəzinin baş məsləhətçisinə cinayət işi açıldı

***Sumqayıt Məşğulluq Mərkəzinin baş məsləhətçisinə cinayət işi açılıb. Bu barədə "Unikal"a Baş Prokurorluğun Mətbuat Xidmətindən məlumat verilib.***



Bildirilib ki, Azərbaycan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) vəzifəli şəxsinin dövlət büdcəsi vəsaitlərinin təyinatından kənar istifadəsi ilə bağlı həmin qurumdan daxil olan məlumat əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Cinayət Məcəlləsinin (CM) müvafiq maddəsi ilə başlanmış cinayət işinin ibtidai istintaqı yekunlaşdırılıb.

Aparılmış istintaqla Rövşən Xəlilovun ƏƏSMN yanında Dövlət Məşğulluq Xidmətinin Sumqayıt şəhər Məşğulluq Mərkəzinin baş məsləhətçi vəzifəsində işləyərkən tanışı Gülgün Nəsirova ilə qabaqcadan əlbir olaraq aldatma yolu ilə müxtəlif şəxslərə məxsus ümumilikdə 4 min 900 manat məbləğində pul vəsaitini ələ keçirməsinə, işlədiyi quruma məxsus olmaqla ona etibar edilən ümumilikdə 6 min 200 manat məbləğində özgə əmlakını təkrarən israf etməklə talamasına, faktiki olaraq işləməyən, lakin formal əmək müqavilələri bağlanmış şəxslərə ünvanlı dövlət sosial yardım təyin edilməsi üçün 11 min 200 manat məbləğdə pulu rüşvət qismində almasına, ayrı-ayrı şəxsləri rüşvət verməyə təhrik etməsinə, eləcə də qanunsuz əməllərini ört-basdır etmək məqsədi ilə informasiya resursuna bilə-bilə yalan məlumatları daxil edərək vəzifə saxtakarlığı törətməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanan sübutlar əsasında Rövşən Xəlilov və Gülgün Nəsirova CM-nin 178.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilən dələduzluq), 179.2.3 (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədilən israf etmə), 311.3.2 (təkrar rüşvət alma), 32.4,312.2 (rüşvət verməyə təhrik etmə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, cinayət işi baxılması üçün aidiyyətı üzrə Sumqayıt Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

İstintaq zamanı Rövşən Xəlilov tərəfindən vurulan ziyanın tam həcmdə ödənilməsi təmin olunub.

# Lavrov və Çavuşoğlu "3+3" platforması ilə bağlı yeni razılığa gəldi

***Rusiya və Türkiyənin xarici işlər nazirləri - Sergey Lavrov və Mövlud Çavuşolulu "3+3" regional platforması çərçivəsində yeni görüşün təşkili barədə razılığa gəliblər.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya XİN-in məlumatında bildirilib. Bundan əvvəl nazirlər arasında telefon danışığının olduğu qeyd edilib.

Lavrov və Çavuşoğlu telefon danışığı zamanı Cənubi Qafqazda vəziyyətin normallaşdırılması və əməkdaşlığın inkişafı üzrə "3+3" regional platformasının 2021-ci il dekabrın 10-da Moskvada keçirilim birinci iclası müsbət qiymətləndirilib.

"Növbəti görüşə də Moskvadakı iclasın tərkibi qatılacaq. Moskva Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasına dəstək verməyə başlayıb. Sergey Lavrov Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşmasının gücləndirilməsinə tərəfdar olduğunu bildirib", - məlumatda deyilir.

Platforma Ermənistan, Rusiya, İran, Türkiyə, Azərbaycan və Gürcüstanın iştirakını nəzərdə tutur. Lakin rəsmi Tbilisi təşəbbüslərə qoşulmaqdan imtina edir. İlk sessiya 2021-ci il dekabrın 10-da Moskvada "3+2" formatında keçirilib.

Paralel olaraq Ermənistan və Türkiyə münasibətləri normallaşdırmaq məqsədi ilə dialoq prosesini elan ediblər. Yanvarın 14-də Moskvada iki tərəfin xüsusi nümayəndələrinin ilk görüşü keçiriləcək.

# Qazaxıstanda 2 minə yaxın etirazçı saxlanıldı

***Qazaxıstanın hüquq-mühafizə orqanları Almatıda reydlər zamanı iğtişaşların 2 minə yaxın iştirakçısını saxlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə cümə axşamı respublikanın Daxili İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

"Almatı polis idarəsinin əməkdaşları Karasai-Batır və Masançi küçələrini təmizləmək üçün irəliləyiblər. Qanunu pozanların tutulması üçün tədbirlər görülür. Ümumilikdə 2 minə yaxın adam polisə gətirilib", - məlumatda deyilir.

# 33 mindən çox peyvənd vuruldu

***Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə vurulan peyvəndlərin sayı açıqlanıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, bir gündə 33 482 vaksin vurulub.

Birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 3594, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4457, buster doza üzrə vaksinasiya olunanların sayı isə 25 431 nəfərdir.

Ölkədə vurulan vaksinlərin ümumi sayı 11 407 447, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 175 536, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 4 684 670, buster doza üzrə vaksinasiya olunanların sayı isə 1 547 241 təşkil edir.

# SABAH qruplarına müəllim seçimi davam edir

***Təhsil Nazirliyinin SABAH qruplarında 2021-2022-ci tədris ilinin yaz semestrində müxtəlif fənlərin tədrisini aparmaq məqsədilə professor-müəllim heyəti və mütəxəssislərin işə qəbulu ilə əlaqədar müraciətlərin qəbulu davam edir.***

Nazirlikdən verilən məlumata görə, namizədlər 16 yanvar saat 00:00-dək müraciət edə bilərlər.

Müsabiqədə magistr dərəcəsi, yüksək səviyyədə İKT və sahə bilikləri olan, innovativ tədris metodlarından istifadə edə bilən, eyni zamanda müasir pedaqoji yanaşmalara malik, dinamik, pozitiv və ünsiyyətcil namizədlər iştirak edə bilərlər.

Hər bir namizəd ən çox 2 fənn üzrə müraciət edə bilər.

Qeyd edək ki, müsabiqə barədə ətraflı məlumatı bu linkə https://bit.ly/3eQP2cW daxil olaraq əldə edə bilərsiniz.



# Milli Məclisdə yeni təyinat

***Parlamentdə yeni sektor yaradılıb.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisdə Dövlət qulluğu və kadr məsələləri şöbəsinin Şəxsi işlərin aparılması sektorudur.

Adıçəkilən sektora Kənan Vaqif oğlu Axundov müdir təyin edilib.

Bundan başqa, Dövlət qulluğu və kadr məsələləri şöbəsinin deputat köməkçiləri ilə iş sektorunun müdiri Elşad İsmayılov vəzifəsindən azad edilib. Onun yerinə Ruslan Cavanşir oğlu Hacıyev təyin olunub.

***Anar Kəlbiyev***

# Lavrov və Çavuşoğlu Rusiya-NATO iclasını müzakirə etdilər

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov və türkiyəli həmkarı Mövlud Çavuşoğlu telefonla danışıb.***

"Unikal" xəbər verir ki, onlar yanvarın 12-də Rusiya-NATO Şurasının iclasına hazırlığı müzakirə ediblər.

"M.Çavuşoğlu bu il yanvarın 12-də Rusiya-NATO Şurasının Avropada təhlükəsizlik təminatları ilə bağlı təkliflərinə baxılması üçün iclasın hazırlanması məsələsini qaldırdı. Sergey Lavrov prosesi uzatmadan konkret nəticələrə nail olmaq maraqları naminə hərbçilərin iştirakı ilə bu mövzuda ciddi müzakirələrin aparılmasının zəruriliyi ilə bağlı Moskvanın mövqeyini bir daha təsdiqləyib", - Rusiya XİN-in saytındakı şərhdə deyilir.

Qeyd edək ki, gələn həftə Rusiya və ABŞ Cenevrədə strateji sabitliyə dair növbəti dialoq raundu, ardınca Brüsseldə NATO-Rusiya Şurasının iclası və Vyanada Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatında (ATƏT) məsləhətləşmələr keçirəcək.

***Ağarza Elçinoğlu***

# "2022-ci ildə pandemiyaya son qoya biləcəyik" - ÜST

***"Bu il COVID-19 pandemiyasının son ili olmaqla yanaşı, həm də yeni həmrəylik mərhələsinin başlanğıcı olmalıdır. Məqsəd 2022-ci ilin ortalarınadək dünya ölkələrində əhalinin azı 70%-nin COVID-19-a qarşı peyvən olunmasından ibarətdir".***

Bunu "Unikal"a Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəsmi nümayəndəsi Tarik Yazareviç bildirib. "Daha yüksək risk qrupuna aid insanlardan başlayaraq, əhalinin peyvəndlənməsini həyata keçirsək, pandemiyanın kəskin mərhələsinə son qoya bilərik. Ölkələr arasında peyvəndləmə göstəriciləri baxımından böyük uçurum var. Bərabərsizliyə son qoya bilsək, pandemiyaya da son qoya biləcəyik", - o deyib.

Onun sözlərinə görə, 2021-ci il bir çoxlarımız üçün ağrılı keçdi: "Amma bu ilin boşa getməsinə imkan verə bilmərik. Ötən ilin bizə verdiyi dərsləri unutmamalıyıq".

T.Yazareviç vurğulayıb ki, daha yoluxucu olan "Omikron" ştamı "delta" ştamı ilə birlikdə dövr edir, həmçinin bu ştamlar dünya ölkələrinin səhiyyə sistemlərinə böyük təzyiq göstərir və göstərməkdə davam edəcək.

# "Bizdə inflyasiya çox sürətlə gedir"

## Natiq Cəfərli: "Dövlət orqanları bu rəqabətsizlik mühitinin aradan qaldırılması üçün çalışmalıdır, rəqabət olan yerdə süni qiymət artımı olmaz"

***Son günlər ölkədə baş verən bahalaşma, xüsusən də un və çörəyin qiymətinin artması müzakirələrə səbəb olub. "Unikal" qəzetinə müsahibə verən ReAL Partiyanın icra katibi, iqtisadçı-ekspert Natiq Cəfərli ilə söhbətimiz də elə bu mövzu ətrafında oldu.***

***-Məlum olduğu kimi, ölkəmizdə un və çörəyin qiyməti bahalaşıb. Bunun bir səbəbi də xaricdən idxal etdiyimiz ərzaq buğdasının qiymətinin artmasıdır. Bu idxalı azaltmaq üçün hansı addımlar atılmalıdır?***

-Rəqəmlər göstərir ki, Azərbaycanın bir ildə xaricdən 1 milyon 300 min ton taxıl almağa ehtiyacı var. Özümüzü ərzaq buğdası ilə təmin edə bilmirik. Xarici bazarlarda qiymətin dəyişməsi Azərbaycana da təsir



göstərir. Mümkün deyil ki, aldığımız ölkələrdə qiymətlər artan kimi, Azərbaycana da təsir etməsin. Əsas məsələlərdən biri də daxili istehsalın artırılmasıdır. Çünki, yerli buğda istehsalı ehtiyaclarımızın cəmi 30 faizini görür, 70 faizini isə xaricdən alırıq. Əsas istiqamət bu olmalıdır ki, Azərbaycan özünü əmtəəlik buğda ilə təmin etsin. Bunun üçün şərait var. Həmçinin, işğaldan azad olunmuş torpaqların iqtisadiyyata qazandırılması yolu ilə bu sahədə istehsalı artırmaq mümkündür. Bu qiymət artımının digər məhsullara necə təsir edəcəyinə gəlincə, undan hazırlanan məhsulların, şirniyyat, makaron, vermişel və s.-nin qiymətində yaxın zamanlarda artım gözlənilir. Artımın 30-35 faiz səviyyəsində olması ehtimalı var.

***-Real qiymət artımları ilə yanaşı süni qiymət artımlarına da rast gəlinir. Bunun qarşısını almaq üçün dövlət qurumları hansı işlər görməlidir?***

-Rəqabətli mühit təsis olunan ölkələrdə süni qiymət artımı mümkün deyil. Süni qiymət artımı varsa, demək ki, rəqabətlə bağlı problemlər var. Dövlət orqanları bu rəqabətsizlik mühitinin aradan qaldırılması üçün çalışmalıdır. Rəqabət olan yerdə süni qiymət artımı olmaz. Bizdə inflyasiya çox sürətlə gedir. Ötən ilin rəsmi rəqəmləri yaxın vaxtlarda açıqlanacaq. Amma 2021-ci ilin 11 ayının nəticələrinə görə, ərzaq inflyasiyası 14,8 faizə yaxınlaşıb. Bu, son illərin ən çox rəsmi inflyasiya göstəricisidir. Reallıqda ərzaq məhsullarının qiymətinin sürətlə artdığı görünür.

***-Qonşu ölkələrdə dolların bahalaşması müşahidə olunur. Ölkəmizdə də dolların bahalaşacağı ilə bağlı fikirlər səsləndirilir. Bu il manatın məzənnəsi necə olacaq?***

-Manatın məzənnəsi dünya birjalarında müəyyənləşdirilmir. Məzənnə inzibati qaydada tənzimlənir, hökumətin və Azərbaycan Mərkəzi Bankının verdiyi qərarlarla müəyyənləşir. Dünyada baş verən proseslər birbaşa manatın məzənnəsinə təsir göstərmir. Obrazlı desək, manat kağız neftdir. Belə ki, manatın məzənnəsi neftin qiymətindən asılıdır. Hazırda qiymət yüksək səviyyədədir. Tədiyyə balansımızda müsbət saldo kifayət qədər yüksəkdir. Ötən ilin son nəticələri elan olunanda rəqəmləri daha dəqiq görəcəyik. İndiki qiymətlərlə manatın məzənnəsinə ciddi təhlükə görünmür. Neft 80 dollar civarındadır. 2022-ci ildə neft qiymətləri belə qalacaqsa, manata hansısa ciddi təzyiqlərin olacağını düşünmürəm. Neftin qiyməti 50 dollara və daha aşağı qiymətə düşərsə, manata olan təzyiqlər artacaq. Bu zaman hökumət məcburən devalvasiyaya gedə bilər.

***-Qazaxıstanda baş verən hadisələr son günlərin ən çox müzakirə olunan məsələsidir...***

-Proseslər başlayan kimi, sosial şəbəkələrdə və bəzi media orqanlarında fikirlərimi bildirdim. Təəssüf edirəm ki, haqlı çıxdım. Məsələ ondadır ki, Qazaxıstanda baş verən proseslərin idarə olunmaz hala gəlməsi, Rusiya qoşunlarının Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) adı altında Qazaxıstana daxil olması ilə nəticələndi. Burada qardaş Qazaxıstan xalqının öz haqlı tələbləri və mübarizəsi də var idi. Daha çox azadlıqlar və dəyişikliklər istəyirdilər. Təəssüf ki, bunun nəticəsində Rusiya qoşunlarının ölkəyə gətirilməsinə səbəb oldular. İstənilən mitinq və aksiya legitim hüquq olmaqla yanaşı, son nəticəyə xidmət etməlidir. Nəticə xalqın, dövlətin rifahının və idarəetmənin yaxşılaşdırılmasına aparıb çıxarırsa, bu, legitim, konstutision hüquqdan xalqların istifadə etməsi düzgündür. Nəticə etibarı ilə belə xaotik aksiyalar dövlət müstəqilliyinin bir xeyli hissəsinin itirilməsinə və xarici qoşunların daha çox ölkədə təmsilçiliyinin artmasına səbəb olursa, hətta bundan sonra avtoritarlaşma meylləri artacaqsa, təəssüf ki, belə nəticələrə səbəb olur. Ümid edirəm ki, Qazaxıstan rəhbərliyi son hadisələrdən doğru nəticə çıxarıb islahatlara gedərək ölkədə xalqın idarəetmədə təmsilçiliyinin artırılması yolunda müəyyən addımlar atacaq.

Onu da qeyd edim ki, Putin tələsir, 2022-ci ildə, SSRİ-nin 100 illiyində simvolik olaraq bu "xalqlar həbsxanasını" diriltmək istəyir. Diktatorlar simvolizmə çox önəm verirlər, bu təhlükə çox real görünür. Ona görə tələsir ki, Qərbə ultimatum verib, yanvarda cavab gözləyir, çox güman, cavab Kreml üçün mənfi olacaq, amma Qərb post-sovet üçün Rusiya ilə üzbəüz gəlməyəcək. Putin bunu bilir, Belarusdan sonra Qazaxstanda da manevələri ləğv edib 3 ölkənin təsisçisi olduğu yeni "İttifaq" elan etmək istəyir.

2022-də "İttifaq" xortlaya bilər, bu bəladan qurtulmaq üçün Azərbaycanın indiki primitiv idarəetmə sistemi dayanıqlı deyil. Acilən yeni Konstitusiya dəyişiklikləri lazımdır. Əgər indiki hakimiyyət yaranmış bu təhlükədən ölkəni qurtarmaq istəyirsə, hər bir addımda dəstək ola bilərik, yox əgər buna qarşı heç bir addım atmayacaqsa xalqı meydanlara səsləməkdən başqa çarə qalmayacaq. Müstəqilliyimizə növbəti dəfə ciddi təhlükə yaranıb - bunu anlamaq, görmək, qarşısını almaq lazımdır.

***Anar Kəlbiyev***

***Biləsuvarın sabiq icra başçısı Mahir Quliyevin barəsində olan cinayət işi üzrə məhkəmə prosesinin yaxın vaxtlarda başlayacağı gözlənilirdi. Lakin yola salmaq üzrə olduğumuz həftə aydınlaşdı ki, həmin məhkəməyə sədrlik edəcək hakim dəyişdirilir.***

Buna səbəb Lənkəran Ağır Cinayətlər Məhkəməsində M. Quliyevin barəsindəki cinayət işinə sədrlik edən hakim İlkin Abdullayevin Şirvan Apellyasiya Məhkəməsinə təyinat alması olub. Ona görə də M. Quliyevin barəsində olan cinayət işinə baxılması başqa hakimin icraatına veriləcək.

Bu səbəbdən məhkəmə də Azərbaycanın sabiq Mədəniyyət naziri Əbülfəs Qarayevin adı gündəmə gələ bilər. Bu isə səbəbsiz deyil. Məsələ orasındadır ki, Ə.Qarayevin qızı Suad ilə ailə quran İran əsilli Britaniya vətəndaşı Şəhriyar Maleki bu izdivacdan sonra Azərbaycanda iri biznesə sahib olub. O, 2016-cı ildən Bakıda "Colab" biznes mərkəzlərinin şərikidir. Onun paytaxtdakı iki ünvanda - Neftçilər pr. 151-də və Time Business Mərkəzində hər biri 1000 kvadratmetrlik iki böyük iş mərkəzlərində ofisləri, seminar və konfrans salonları icarədədir.

Lakin ən maraqlı məqam başqadır. Keçmiş nazirin kürəkəni 2016-cı ilin noyabrında tadakı şirkətinin nəzarətinə verilməsinə nail olub.

İcarə müqaviləsinə imza atan isə məhz Mahir Quliyevdir!

O həmin imza ilə dövlət büdcəsini faktiki olaraq külli miqdarda gəlirdən məhrum edib. Çünki icarə müqaviləsi real dəyər əsasında bağlansaydı bundan dövlət xeyli böyük vəsait qazanacaqdı.

Bəs görəsən, sabiq nazirlə sabiq icra başçısı arasındakı məlum anlaşmanın "motivasiyası" nə olub? Burada iki məqam önə çıxır. Bəzi iddialara görə, Mahir Quliyevlə Əbülfəs Qarayev yaxın dostluq münasibətlərinə malik olublar. Elə ona görə də keçmiş icra başçısı 5

# Əbülfəs Qarayev yenidən həyəcan içində

## Biləsuvarın sabiq icra başçısının məhkəməsində keçmiş nazirin də adı gündəmə gələ bilər - Səbəbi...



prosesi qeyri-müəyyən vaxta qədər təxirə salınıb.

Qeyd edək ki, koronavirusa yoluxan Biləsuvarın sabiq icra başçısı bir müddət əvvəl Dövlət Gömrük Xidmətinin ixtisaslaşmış Hospitalında müalicə aldıqdan sonra reabilitasiya mərkəzinə köçürülmüşdü.

Məhkəmənin hazırlıq və ilk baxış iclası hakim İlkin Abdullayevin sədrliyi ilə keçirilib.

Xatırladaq ki, Biləsuvar rayonunun sabiq icra başçısı Mahir Quliyev Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən xüsusi əməliyyatla saxlanılıb.

İstintaq orqanı tərəfindən Mahir Quliyevin barəsində Cinayət Məcəlləsinin 179-cu (mənimsəmə və israf etmə), 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 311.3.2-ci (təkrar rüşvət alma) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib.

M.Quliyevin məhkəməsin- Azərbaycanda həmçinin "Green Farms Azerbaijan" adlı MMC-ni də qeydiyyatdan keçirib. Şirkətə aid saytda qeyd olunur ki, o, "Green Farms International" şirkətinin Azərbaycan üzrə nümayəndəliyidir.

Və gələk əsl mətləbə: Əbülfəs Qarayevin nazir kimi nüfuzu sayəsində həmin MMC 2017-ci ilin mayında Biləsuvar rayon İcra Hakimiyyətindən nə az, nə çox düz 5 min hektar torpaq sahəsini 49 illik icarəyə götürüb. İlk baxışda bu anlaşılandır. Anlaşılmaz olan odur ki, icarə qiyməti həddən artıq aşağıdır.

Sözügedən ərazi Qarayevlərin və qohumlarının nəzarətinə keçənə qədər qışlaq sahəsi olub və yerli əhali tərəfindən təyinatı üzrə istifadə edilib. İddialar bu yöndədir ki, sabiq nazir 2017-ci ildə Nazirlər Kabinetinin sərəncamı ilə bu ərazinin əkin sahəsi kimi istifadə olunmasına və qudasının Mal- min hektar torpaq sahəsini həm də 49 il kimi uzun bir müddətə və çox aşağı qiymətə eks-nazirin ailə üzvlərinə icarəyə verib.

Başqa bir iddia isə ondan ibarətdir ki, işin içində yalnız dostluq münasibətləri yox, həm də mənfəətpərəstlik olub. Belə ki, həmin torpaq sahəsinin icarəsi üçün sabiq başçı kifayət qədər böyük məbləğdə şirinlik aldığı deyilir.

Və sonda: öz kadrlarının həbsindən sonra uzun müddət təlaş içində olan Əbülfəs Qarayevin indi başqa bir əndişəsi var. Sabiq nazir, yuxarıda yazdıqlarımız səbəbilə, Biləsuvarın keçmiş icra başçısı ətrafında məhkəmə prosesinə start verilməsini həyəcanla, dərin narahatlıqla gözləyir. Həmin məhkəmədə məlum torpaq icarəsi məsələsinin gündəmə gəlib-gəlməyəcəyini isə zaman göstərəcək...

***Sənan Mirzə***

# "Çörəyin bahalaşması bankların fırıldağıdır" - Rəşid Mahmudov

***Xəbər verdiyimiz kimi, Azərbaycanda çörəyin pərakəndə satış qiyməti - 50 qəpik, 650 qr-lıq ənənəvi (dairəvi) çörəyin pərakəndə satış qiyməti - 65 qəpik olaraq müəyyən edilib.***

Bununla bağlı "Unikal"a açıqlama verən tanınmış ictimai xadim Rəşid Mahmudov bahalaşma prosesinin təkcə ölkəmizdə yox, dünyada baş verdiyini bildirib:

"Çörəyin qiymətini qəsdən qaldırırlar. Koronavirus insanlara işləməyə imkan verməyib. Təkcə çörəyi yox, hər şeyin qiymətini qaldırırlar. Pandemiya dövründə heç kim banklardan kredit götürmürdü. İndi qiymətləri ona görə qaldırıblar ki, insanların pulu qurtarsın, gedib təzədən bankdan kredit götürsünlər. Bunlar hamısı bankların fırıldağıdır".

***Murad İbrahimli***

# Nazir işdən çıxardığı rəisin yerinə onu təyin etdi

***Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin İnkişafı Xidmətinə yeni rəis təyin edib.***

"Unikal" Qaynarinfo-ya istinadən xəbər verir ki, nazir Muxtar Babayevin əmri ilə, Ətraf Mühitin və Təbii Sərvətlərin Tənzimlənməsi Şöbəsinin müdiri Xalıqverdi Hüseynov vəzifəsindən azad edilərək Meşələrin İnkişafı Xidmətinə rəisi təyin olunub.

Xatırladaq ki, Baş prokurorluq və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları tərəfindən Lənkəran, İsmayıllı, Masallı və digər rayonlarda meşələrin qanunsuz qırılması faktları üzrə aparılan yoxlamaların nəticəsi olaraq Meşələrin İnkişafı Xidmətinin rəisi Namiq Xıdırov vəzifəsindən çıxarılıb.

# "Aztelekom" Şuşada filial açdı

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə (NRYTN) məxsus "Aztelekom" MMC-də növbəti struktur islahatı aparılıb.***

Bakıvaxtı.az xəbər verir ki, "Report"un əldə etdiyi məlumata görə, qurumun azad edilmiş ərazilərdə ilk filialı olan "Şuşa" filialı fəaliyyətə başlayıb. Hələlik filial rəhbərliyinə təyinat yoxdur. Bununla da qurumun filiallarının sayı 6-ya çatdırılıb.

Nazirlikdən "Report"un sorğusuna cavab olaraq fakt təsdiq edilib. Qeyd edək ki, bundan öncə şirkətin "Cənub Şirvan", "Şimal-Qərb", "Şimal-Şərq", "Aran" və "Dağlıq Şirvan" regional filialları yaradılıb. Xatırladaq ki, "Aztelekom"da struktur islahatları "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Prezident İlham Əliyevin 27 aprel 2021-ci il tarixli Fərmanına uyğun olaraq aparılır. Filialların sayının 8-ə çatdırılması nəzərdə tutulur.

# Fransa "Google" və "Facebook"u 210 milyon avro cərimələdi

***Fransada "Google", "Facebook" və "Youtube" internet şəbəkələri cərimə edilib.***

"Unikal" xəbər verir ki, Fransa Milli İnformatika və Azadlıqlar Komissiyasından (CNIL) verilən açıqlamaya görə, kukilərin asanlıqla qəbul edildiyinin müəyyən edildiyi, lakin bundan imtinanın çətin olduğu üçün cərimə tətbiq edilib.

Bildirilib ki, "Google" 150 milyon, "Facebook" isə 60 milyon avro cərimə olunub. Açıqlamada problemin aradan qaldırılması üçün sözügedən platformalara 3 ay vaxt verildiyi və hər gecikmə günü üçün 100 min avro cərimə tətbiq ediləcəyi bildirilib.

***Ağarza Elçinoğlu***

# Azərbaycan hərbçiləri beynəlxalq təlimlərdə iştirak edəcək - MN

***Azərbaycan Ordusunun hərbi qulluqçuları beynəlxalq təlimlərdə iştirak edəcək.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunda şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması istiqamətində görülən işlər davam etdirilir.

Qeyd olunub ki, 2022-ci tədris ilində hərbi qulluqçularımızın 30-dan artıq beynəlxalq təlim və yarışlarda iştirakı planlaşdırılır. "Eternity - 2022", "EFES - 2022", "Sarsılmaz Qardaşlıq - 2022", "Qış təlimi - 2022", "Beynəlxalq Ordu Oyunları - 2022" və digər beynəlxalq təlim və yarışlar bura cəlb ediləcək hərbçilərimizin qarşılıqlı təcrübə mübadiləsi nəticəsində bilik və bacarıqlarının artırılmasına müsbət təsir edəcək.

Bundan başqa cari il ərzində hərbi qulluqçularımızın müxtəlif beynəlxalq seminar və konfranslarda iştirakı da nəzərdə tutulub.

# Bakıda şagirdi silləlayən direktorla bağlı araşdırmaya başlanıldı




***Bakı şəhəri 9 nömrəli tam orta məktəbin direktorunun şagirdlərlə uyğun olmayan davranışının əks olunduğu videogörüntü ilə bağlı Bakı Şəhəri üzrə Təhsil İdarəsi (BŞTİ) tərəfindən müvafiq araşdırma aparılır. Araşdırmanın nəticələri barədə əlavə məlumat veriləcək.***

Bu barədə "Unikal"ın sorğusuna cavab olaraq BŞTİ-dən bildirilib.

Nəsimi RPİ-nin 19-cü Polis Şöbəsində Bakı şəhəri 9 nömrəli tam orta məktəbin direktorunun şagirdlərlə uyğun olmayan davranışı ilə bağlı təhqiqat araşdırmaları aparılır.

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin şöbə rəisi, polis mayoru Elşad Hacıyev məlumat verib. E.Hacıyevin sözlərinə görə, hazırda təhqiqat qrupu məktəbdədir. Araşdırmanın nəticəsindən asılı olaraq əmələ hüquqi qiymət veriləcək.

# Bu şəxslərin "Peyvənd sertifikatı" etibarsız sayılacaq

***"İkinci dozadan 6 ay sonra qoruyucu immunitetin səviyyəsinin azalmasını nəzərə alaraq, bədənin anticisimlərini yenidən yüksək səviyyəyə çatdırmaq üçün gücləndirici doza qəbul olunmalıdır".***

"Unikal" xəbər verir ki, bu barədə APA-ya Səhiyyə Nazirliyindən bildirilib.

Qeyd olunub ki, əks halda 2-ci dozanın üzərindən 6 aydan çox keçmiş şəxslərin "Peyvənd sertifikatı" fevralın 15-dən etibarlı hesab edilməyəcək.

O da bildirilib ki, "İmmun sertifikatı" olan şəxs xəstəliyindən 6 ay keçdikdən sonra buster doza qəbul edibsə, onun "İmmun sertifikatı" "Peyvənd sertifikatı" ilə əvəzlənir. Bu səbəbdən fevralın 15-dən həmin şəxsin "Peyvənd sertifikatı"nın müddətinə hər hansı bir məhdudiyyət qoyulmayacaq.

# Apteklərdə bu dərmanlar niyə yoxa çıxıb?

***Son günlər uşaqlar arasında qrip virusunun kütləvi şəkildə yayılması dərmanlara olan tələbatı artırıb. Valideynlər isə bu kimi hallarda qızdırma və öskürəyin müalicəsində ən çox istifadə etdikləri "Tsefekon" və "Prospan" adlı dərmanları tapmaqda çətinlik çəkdiklərini deyirlər. Onların sözlərinə görə, hər iki dərmana hazırda apteklərdə rast gəlinmir. Bildirilir ki, "Tsefekon"un qiyməti 1 manat 40 qəpik olsa da, onun əvəzedicisi əczaçılar tərəfindən 4 manat 21 qəpik təklif edilir.***

Səhiyyə Nazirliyindən "Qafqazinfo"ya bildirilib ki, apteklər özəl müəssisələrdir və onların dərman təminatı özəl müəssisələr tərəfindən həyata keçirilir.

Bu məqamda bir neçə apteklə əlaqə saxlayaraq, adıçəkilən dərmanların olub-olmaması ilə maraqlandıq. "Zəfəran" apteklər şəbəkəsindən saytımıza bildirilib ki, "Tsefekon" dərmanı hazırda onların bütün şöbələrində mövcuddur. "Prospan" siropu isə iki gündür bazada yoxdur. Nə vaxt gələcəyi isə bilinmir.

"Zeytun" apteklər şəbəkəsindən isə deyilib ki, "Tsefekon"un 3 aydan 3 yaşa kimi olan növü apteklərdə mövcuddur. 3 yaşdan yuxarı növü isə hazırda yoxdur. "Prospan"ın siropu isə 1 aya yaxındır ki, aptekə gəlmir.

"Tsefekon"un 1 aydan 3 ayadək olan növü "Ozon" apteklərində də var, qiyməti də 1 manat 30 qəpikdir. "Prospan" isə uzun müddətdir ki, burada da yoxdur.

"Life" aptekdən verilən məlumata görə, "Tsefekon" dərmanı hazırda yoxdur, "Prospan"ın isə sonuncusu dünən satılıb.

Depo aptekdə də hazırda "Tsefekon"nun olmadığı, "Prospan" siropunun isə alman istehsalı olan növünün ( qiymət 32 manat) olduğu qeyd edilib.

"Kanon" aptekdə də hazırda "Tsefekon"nun 3 aydan 3 yaşa kimi növünün var olduğu, "Prospan" öskürək dərmanının isə bu gün ərzində ola biləcəyi vurğulanıb.

Qeyd edək ki, hazırda "Tsefekon"un mövcud olduğu apteklərdə qiyməti 1 manat 40 qəpik səviyyəsində dəyişməz olaraq qalıb.

# Anar Kərimovun islahat vədləri...

## Sözdən işə keçməyin vaxtı çatmayıbmı?

***2021-ci ilin son günlərində Mədəniyyət naziri Anar Kərimov ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında mədəniyyət sahəsində görülən işlərdən danışdı. Eyni zamanda görüləcək işlərə, aparılacaq islahatlara toxundu.***

Anar müəllim Mədəniyyət naziri postuna bir il öncə təyinat alıb. Ötən ilin yanvarında nazir kürsüsünə əyləşən Kərimovun qarşısında çətin vəzifələr dayanırdı. Etiraf eləmək lazımdır: Əblüfəs Qarayevin dövründə mədəniyyət sahəsi iflic duruma düşmüşdü və sələfindən qalan bu ağır mirası yoluna qoymaq üçün yeni nazirə xeyli vaxt, zəhmət, enerji tələb olunur!



Lakin o da unudulmamalıdır ki, bir il yetərincə uzun vaxtdır və həmin müddətdə ən azından vəd olunan islahatların gerçək mahiyyəti aydınlaşmalı idi. A.Kərimovun çıxışlarında biz "islahat" sözünü tez-tez eşidirik, intəhası, NƏLƏRİ və NECƏ dəyişdirmək istədiyinə dair ipucları tapa bilmirik. Bir az da konkretləşdirsək: Mədəniyyət Nazirliyinin fəaliyyətində sözün həqiqi mənasında YENİLİK müşahidə olunmur; hətta Qarayevin zamanındakı bir sıra problemlərin hələ də həllini gözlədiyinə şahidlik edirik. Söhbət elə sadə problemlərdən gedir ki, onların həlli üçün uzun zamana da ehtiyac yoxdur.

Məsələn, götürək kinonu...

Anar müəllim mətbuat konfransında bu istiqamətlə bağlı da islahat mesajları verdi, ancaq görünən odur ki, kino əməkçiləri bu cür mesajlardan çox konkretlik - konkret iş, konkret əməl gözləyirlər. Elə xalq artisti Rasim Balayevin söylədikləri bu mənada yaxşı nümunədir: "İslahat deyəndə nə nəzərdə tutulur? Nə islahat? Yaxşı, sanballı film çəkmək lazımdır. Çox sözlər deyirlər, islahatlardan danışırlar. İstəyirsən, adını islahat qoy, amma nəticədə ortaya yaxşı film çıxar. Söhbət etmək yaxşıdır, amma ortada bir iş olsun. Həmişə deyirik ki, Türkiyə ilə müştərək film çəkilsin. Amma bunu illərdir deyirik, əmələ gəlmir, sözdə qalır..."

Fikrimizcə, əlavə şərhə ehtiyac yoxdur.

Bəlkə də hazırkı Mədəniyyət naziri məlumatsızdır; elə isə onun diqqətinə çatdıraq ki, illərdir nazirliyin kino şöbəsinin fəaliyyəti, daha doğrusu, fəaliyyətsizliyi ilə bağlı giley-güzarlar, şikayətlər səngimir. Yenə Rasim müəllimin dediyi kimi, indinin özündə də həmin kino şöbəsində bir neçə nəfər oturub, kinoya isə kinodan başı çıxan adam nəzarət etməlidir. Sitat: "Keçmiş nazirin kinodan başı çıxmırdı, başqa yerdən gəlmiş bir adam idi. Kiminsə ssenarisini gətirirdilər. O da ssenarini istehsalata buraxırdı. Kinonu dərindən bilməyən adam ssenariyə baxır. Deyir ki, hə, bunu çəkin. Bu iş belə olmur. Ona görə deyirəm ki, bu işi peşəkara həvalə etmək lazımdır".

Dediyimiz odur ki, ən azı bu cür bəsit, lakin mədəniyyətimizin inkişafı baxımından artıq "qanayan yaraya" çevrilmiş problemlərlə bağlı konkret addımlar atmaq olmazmı? Belə addımlardan sonra Anar müəllimin islahat mesajları da cəmiyyətdə, mədəniyyət adamları arasında səmimi, inandırıcı qəbul olunardı...

Yaxud, bu yaxınlarda bəstəkar Firudin Allahverdi sosial media hesabında paylaşım edərək irihəcmli əsərlərə verilən qonorarın az olduğuna dair geniş yazı yazdı. Onun sözlərinə görə, bəstəkarlarımızın iri həcmli musiqi əsərlərinə meyl etməməsinin səbəblərindən biri məhz qonorarın kifayət qədər olmamasıdır. Mədəniyyət Nazirliyindən şikayətçi olan bəstəkar ilginc məqamlar da açıqlamışdı. Məsələn: "2016-cı ilin baharında Dövlət Musiqili Teatrında "Baladadaşın toy hamamı" adlı müziklım səhnəyə qoyuldu. Pandemiyaya görə teatrların bağlandığı ana qədər 4 il boyunca bu tamaşa, demək olar ki, hər ay oynanıldı. Həmin ilin sonunda məni Mədəniyyət Nazirliyinə dəvət edib, imzalamağım üçün qonorarla bağlı sənəd təqdim etdilər. Baxdım ki, sənəddə göstərilən məbləğ Nazirlər Kabinetinin müvafiq qərarında bu formalı əsərlər üçün göstərdiyi məbləğin (10 000 AZN) düz yarısıdır. Səbəbini soruşduqda mənə dedilər ki, "orada göstərilən maksimal məbləğdir, yaşlılar, canlı korifeylər üçün nəzərdə tutulub. Sən isə cavansan, ona görə də sənə yarısını təqdim edirik.Mən bundan imtina edib, bunu ayrı-seçkilik hesab etdiyimi dedim. Cavabları bu oldu ki, budur. Nə etsən də, hara yazsan da xeyri olmayacaq".

Acınacaqlı odur ki, sözügedən mövzu eks-nazir Əbülfəs Qarayevin zamanında xüsusilə aktuallaşıb və onun ünvanına haqlı iradların, tənqidlərin səslənməsinə gətirib çıxarıb. Lakin Qarayev, mədəniyyət sahəsindəki bir çox problemlər kimi, bu məsələdə də laqeydlik nümayiş etdirib, iradlardan, tənqidlərdən nəticə çıxarmayıb.

Lakin belə anlaşılır ki, Mədəniyyət Nazirliyində Əbülfəs Qarayev ənənəsi davam etdirilir. Bu isə yalnız təəssüf doğurur. Və elə təəssürat yaradır ki, nazirliyin indiki rəhbərliyinin islahat vədləri sadəcə vəd olaraq qalacaq. Ona görə də, ən azından əvvəlki nazirin zamanından qalmış ən adi problemləri həll eləmək lazımdır ki, həmin təəssürat öz yerini inama buraxsın - Mədəniyyət sahəsində həqiqətən də köklü dəyişikliklər olacağına dair İNAMA!

Bəlkə düz demirik?!

***Sənan Mirzə***

# Daha bir sabiq deputatın başı çoxmilyonluq qalmaqalda

## Nəriman Əliyevə qarşı ağac kəsmək ittihamı böyük məbləğdə yeyintiyədək uzandı; ancaq işin daha ağrılı tərəfi də var...

***Azərbaycanda istər vəzifədə olan, istərsə də "sabiq" ünvanı daşıyan məmurlarla, deputatlarla bağlı skandalların ardı-arası kəsilmir. Yola salmaq üzrə olduğumuz həftə bu skandalların sırasına yenisi əlavə olundu.***

Söhbət keçmiş deputat Nəriman Əliyevdən gedir; məsələ burasındadır ki, öncə Milli Məclisin sabiq üzvü özünə məxsus "Ştutqart" MMC-nin anbarının yaxınlığında yerləşən 37 ədəd ağacı kəsməkdə, 64 işçinin 76 min manat maaşını verməməkdə ittiham edildi. Lakin həmin ittiham fərqli yerlərə uzandı və ortaya 25 milyon manatlıq yeyinti iddiasını çıxardı. Bir az da dəqiqləşdirsək, N.Əliyev ağac kəsmək və maaş ödəməməklə bağlı ittihamı irəli sürən şəxsləri məhz həmin məbləğdə mənimsəmədə günahlandırdı.



Ən ilginc olan odur ki sabiq deputatın 25 milyon manatı "yeməkdə" suçladığı şəxslər arasında öz bacısı oğlu Əfqan Abdullayev də var!

"Ştutqart" şirkətinin keçmiş əməkdaşı Abutalıb Ağayevin yerli mətbuata dediyinə görə, N.Əliyev paytaxtın Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsi "10 C" ünvanında yerləşən boş ərazini özəlləşdirərək öz adına rəsmiləşdirib. Orada 941.5 kvadratlıq iki mərtəbədən ibarət anbar, 132.2 kvadratlıq iki mərtəbədən ibarət ofis binası inşa edib. Bundan sonra, 2020-ci ilin aprel ayında geridə qalan boş sahəni hündür hasara almaqla bu hissədə yerləşən 37 ədəd bir neçə illik, böyük ağacları kəsərək tikinti aparmaq üçün hazır vəziyyətə gətirib. Bununla bağlı müraciətdən sonra mütəxəssislər əraziyə gələrək baxış keçirib.

Ağayev iddia edib ki, N.Əliyev ağacları kəsdikdən sonra "burada ağaclar olduğu unudulan kimi tikintiyə başlayacağıq" deyib. Onun fikrincə, 37 ədəd ağacı kəsməklə ekologiyaya vurduğu ziyana görə Nəriman Əliyev cinayət məsuliyyətinə cəlb olunmalıdır.

Keçmiş deputat isə nəinki ağacların kəsildiyi barədə iddianı rədd edir, üstəlik, bildirir ki, bacısı oğlu Əfqan Abdullayev və onun işçisi Abutalıb Ağayevdən polisə şikayət etdiyi üçün həmin şəxslər onu ağac kəsilməsi iddiası ilə şantaj edirlər: "Onlar birlikdə şirkətin 10 milyon manatdan çox pulunu mənimsəyiblər. Bura özəlləşəndən sonra biz şirkətə dəyən ziyan haqda məlumat almışıq və DİN-ə müraciət etmişik. Həmin işdə də bu şəxslər ittiham olunurlar. İndi buna görə də onlar məni bu yolla şantaj edirlər".

Sabiq deputatın bacısı oğlu Əfqan Abdullayev isə söylənilənləri yalanlayıb, onlara qarşı heç bir cinayət işi açılmadığını deyib, hər hansı yeyintiyə yol vermədiyini söyləyib.

Bir sözlə, ortalıq əməllicə qarışıb. Sabiq deputatla bacısıoğlu və keçmiş əməkdaşları üz-üzə gəliblər. Hər iki tərəfin iddiaları da, ittihamları da kifayət qədər hay-küylüdür.

Ən acınacaqlısı, ağrılı olan tərəfi isə odur ki, bizdə indiki və ya sabiq məmurların, hazırkı və ya eks-deputatların adı hələ də bu cür qalmaqallarla gündəmə gəlməyə davam edir! Halbuki ağlı başında olan hər kəsə gün kimi aydındır ki, belə qalmaqallar bürokratik sistemə inamı zədələdiyi, yaxud ali qanunverici orqanın nüfuzuna xələl gətirdiyi kimi ümumilikdə cəmiyyətin siyasi-mənəvi iqlimini, qarşılıqlı inam mühitini də zəhərləyir.

Dəfələrlə yazılıb, deyilib: vəzifəli şəxslərin təyinatı, millət vəkillərinin seçimi zamanı müxtəlif prinsipləri ön plana çıxarmağın vaxtı çatıb. Burada təcrübə, bacarıq, istedad kimi amillərlə yanaşı bir kriteriya da nəzərə alınmalıdır - məmurlar, deputatlar heç bir halda biznes münasibətlərində olmamalıdır. Sözügedən kriteriya nəzərə alınsaydı biz, məsələn, Rafael Cəbrayılovun deputat mandatını girov qoyaraq borc götürməsinədək uzanan rüsvayçı qalmaqalına şahidlik edərdikmi? Yaxud başqa bir deputatın - Cavanşir Feyziyevin Londondakı mülklərinin üzərinə həbs qoyulması haqda oxuyardıqmı? Sabiq nazir Ziya Məmmədovun adı İsveçdəki 288 milyon dollarlıq korrupsiya qalmaqalına qarışardımı, bununla bağlı cinayət işində hallanardımı?!

Belə nümunələrin sayını kifayət qədər artırmaq olar. Lakin nə hacət var? Bircə yenidən, hətta təkrar-təkrar xatırlatmaqda fayda görürük: nə qədər ki, biznes münasibətlərində olan şəxslər müxtəlif vəzifələrə gəlməkdə, Milli Məclisə yol tapmaqda davam edəcəklər, biz də məmurlar, deputatlar ətrafında yaşanan müxtəlif skandallara şahid olmaqda davam edəcəyik.

Bundan zərər görən isə, yuxarıda da vurğuladığımız kimi, həm bürokratik sistem, qanunverici orqan olacaq, həm də cəmiyyətin siyasi, mənəvi iqlimi!...

***Toğrul Əliyev***

# Fərid Qayıbov Zabit Səmədovla görüşüb

***Gənclər və idman naziri Fərid Qayıbov Heydər Əliyev adına İdman Konsert Kompleksinin fəaliyyəti ilə tanış olub.***

Nazirliyin Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, o, burada yaradılmış şəraitlə maraqlanıb və fitnes zalına baxış keçirib. Kompleksdə "Zabit Səmədov" döyüş klubunda məşqləri izləyən F. Qayıbov idmançılar və məşqçilərlə görüşüb, hazırlıq prosesləri ilə maraqlanaraq fikir mübadiləsi aparıb.

Zabit Səmədov rəhbərlik etdiyi klubun fəaliyyəti barədə məlumat verib. Fərid Qayıbov idmançıların beynəlxalq yarışlara hazırlığı ilə maraqlanıb və MMA klublarının birgə fəaliyyətinə dair tövsiyələr verib.

Görüşdə nazir müavini Mariana Vasileva, İdman Şöbəsinin müdiri Elnur Məmmədov və Kadr Hazırlığı Sektorunun baş məsləhətçisi Ramil Cabbarov da iştirak ediblər.

# Şuşada içməli su təchizatı sistemləri yaradılır

***"Azərsu" ASC-də Şuşa şəhərinin və Şuşa rayonunun Daşaltı kəndinin içməli su təchizatı sisteminin yaradılması ilə bağlı texniki-iqtisadi əsaslandırma və ilkin layihə sənədlərinin hazırlanması məqsədilə yaradılmış işçi qrupun ilk iclası keçirilib.***

Bu barədə "Unikal"a qurumdan bildirilib. Məlumata görə, iclasda işçi qrupuna daxil olan müxtəlif dövlət təşkilatlarının mütəxəssisləri iştirak edib. İşçi qrupunun rəhbəri, "Azərsu"yun sədr müavini Etibar Məmmədov Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin içməli su təchizatının bərpası məqsədilə görülmüş işlər barədə məlumat verib. O, bildirib ki, Şuşa şəhəri işğaldan azad olunduqdan bir neçə gün sonra qurumun mütəxəssisləri şəhərin su təchizatı sistemlərinin araşdırılmasına başlayıb. Mürəkkəb relyef və sərt iqlim şəraitində Kiçik Kirs-Şuşa və Zarıslı-Şuşa magistral su kəmərlərinin qəzalı hissələri bərpa edilib, 2020-ci il noyabrın 25-də Kiçik Kirs, dekabrın 20-də isə Zarıslı mənbəyindən Şuşaya suyun verilişi bərpa olunub. Bununla paralel olaraq şəhərdaxili şəbəkədə tənzimləmə işləri aparılıb və ötən ilin noyabr ayından etibarən şəhərdə fasiləsiz xidmət təşkil edilib.

"Azərsu"yun Planlaşdırma və layihələndirmə departamentinin rəisi Bahadur Kəngərli Şuşa şəhərinin içməli su təchizatı sisteminin yenidən qurulması məqsədilə perspektivdə nəzərdə tutulan işlər barədə məlumat verib.

İşçi qrupunun iclasında su ehtiyatlarının qiymətləndirilməsi, su anbarlarının yaradılması, içməli, tullantı, yağış suları sistemlərinin idarə edilməsi üzrə baş planların hazırlanması, içməli və tullantı suitəmizləyici qurğular üzrə araşdırmaların aparılması, su təchizatı sistemlərində innovativ texnologiyaların tətbiqi və ətraf mühitə təsirin qiymətləndirilməsi məsələləri müzakirə edilib, texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması ilə bağlı tapşırıqlar verilib.

Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq 2021-ci ildə Kiçik Kirs-Şuşa magistral su kəmərinin 5,7 km-lik hissəsi polad borularla yenidən qurulub.

# Dövlət Baxçalıya "TURKOVAC" peyvəndi vuruldu

***Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının (MHP) lideri Dövlət Baxçalı ölkənin yerli istehsalı olan "Turkovac" ilə koronavirusa qarşı peyvənd olunub.***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı Baxçalı öz rəsmi tviter hesabında paylaşıb.

O, Türkiyə xalqını "Turkovac" ilə koronavirusa qarşı peyvənd olunmağa dəvət edib. Xatırladaq ki, "Turkovac" peyvəndi üçün təcili istifadə icazəsi verilib və 2021-ci il dekabrın 22-dən kütləvi istehsalına başlanılıb.

# "Qazaxıstanda hər cür dəstəyi verməyə hazırıq" - Binali Yıldırım

***"Qazaxıstanda həyatın normal axışına dönməsi üçün hər cür dəstəyi verməyə hazırıq".***

"Unikal" xəbər verir ki, Türk Dövlətləri Təşkilatı (TDT) Ağsaqqallar Şurasının sədri, Türkiyənin sabiq Baş naziri, hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini Binəli Yıldırım tviter hesabında yazıb.

"Bu günlərdə Qazaxıstanda baş verənlərin ölkənin sülh və sabitliyinə zərər vermədən başa çatmasını arzulayırıq. Türk Dövlətləri Təşkilatı ağsaqqalları olaraq Qazaxıstanla güclü müttəfiqliyimizi nəzərə çatdırmaq istəyirik. Hadisələrdə həlak olan qardaşlarımıza Allahdan rəhmət, yaralılara şəfa diləyirik", - o qeyd edib.

# Bakıda iki ev yandı - Xəsarət alan var



***Bakıda ev yanıb, xəsarət alan var. Bu barədə "Unikal"a Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat Xidmətindən məlumat verilib.***

Bildirilib ki, paytaxtın Suraxanı rayonunda ümumi sahəsi 238 m² olan birmərtəbəli evin yanar konstruksiyaları və dam örtüyü 198 m² sahədə yanıb.

Yüksək temperaturdan yaxınlıqda ümumi sahəsi 135 m² olan birmərtəbəli evin dam örtüyünün taxta atmaları 1 m² sahədə qarsalanıb. Yanğın zamanı 1 nəfər yanıq xəsarəti alıb.

Hər iki evin qalan hissəsi və yaxınlıqdakı digər evlər yanğından mühafizə olunub.

Yanğın söndürülüb.

# Türkiyədə vətəndaşlıq almaq istəyənlərin NƏZƏRİNƏ!

***Əcnəbilərin Türkiyə vətəndaşlığına qəbulu qaydalarına dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkə Prezidenti Rəcəb Tayyib Ərdoğan qərar imzalayıb.

Sənədə əsasən, Türkiyə vətəndaşlığına qəbul olmaq üçün əsas müddəa və meyarlar aşağıdakı kimi müəyyənləşdirilib:

1. Qiyməti 250 min ABŞ dollarından başlayan daşınmaz əmlakın alınması;
2. Banka 500 min dollar əmanət qoyulması;
3. 500 min dollar dəyərində qiymətli kağızların alınması;
4. 500 min dollar məbləğində dövlət istiqrazlarının alınması;
5. 500 min ABŞ dollarına investisiya fondlarının səhmlərinin alınması;
6. 50 iş yeri açmaq.

Bu müddəa və meyarlardan ən azı birinə əməl edənlərə avtomatik olaraq Türkiyə vətəndaşlığı veriləcək.

# Uşaqlar arasında yayılan virusla bağlı RƏSMİ AÇIQLAMA

***"Son günlər uşaqlar arasında yayılan xəstəliklərlə bağlı müraciətlərin sayı artıb. Gətirilən uşaqların böyük əksəriyyətində qızdırma, halsızlıq, öskürək, ishal və s. simptomlar müşahidə olunur".***

Bu barədə "Unikal"a Kliniki Tibbi Mərkəzin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, son zamanlar uşaqlar arasında yayılan xəstəliklər mövsümi xarakter daşıyır:

"Bəzi uşaqların bunu bir qədər ağır keçirməsi onların koronavirusa (COVID-19) yoluxması demək deyil. Uşaqlarda COVID-19-a yoluxma çox az hallarda baş verir".

Mərkəzin tabeliyində olan 2 saylı Klinik Uşaq Xəstəxanasının pediatr-infeksionisti Rəna Hüseynovanın sözlərinə görə, uşaqlarda immunitetin zəif olması, kütləvi tədbirlərdə, insanların sıx olduğu ərazilərdə yaxın təmasları olması xəstəliklərin onlar arasında kütləvi artmasının əsas səbəblərindəndir. R.Hüseynova valideynlərə tövsiyəsində bildirib ki, hazırda geniş yayılan xəstəliyin müalicəsi üçün həkimlə məsləhətləşmək mütləqdir:

"Valideynlər həkimlə əlaqə qurana qədər uşaqlara çoxlu maye, onların qızdırmasının aşağı düşməsi üçün dərman verə bilərlər. Antibiotik vasitələrdən istifadə isə yolverilməzdir. Antibiotiklə müalicəyə ancaq həkim qərar verə bilər".

Pediatr-infeksionist əlavə edib ki, sağlam qidalanmaqla, gigiyena qaydalarına düzgün əməl etməklə, insanlarla sıx təmasdan uzaq olmaqla xəstəliklərdən qorunmaq mümkündür.

# Məhərrəm Quliyevə asan sual...

## Həftənin replikası: doğrudanmı, Goranboyun yerli icra hakimiyyətinin bir qazi ailəsi üçün ev tikməyə pulu yoxdur?



***Bu günlərdə yerli mətbuatda bir qazi ailəsinin şikayəti yer almışdı. Şikayəti oxuduqca, insan gözlərinə inana bilmirdi. Belə məlum olurdu ki, 44 günlük müharibənin iştirakçısı, gözü önündə həlak olan döyüş yoldaşını ərazidən çıxaranda özü də yaralanan, vücuduna həm bel, həm də ayaq nahiyəsindən güllə və qəlpə dəyən 21 yaşlı Vüsal Quliyevin anası və 8 övladı illərdir ki, birotaqlı, qamışla örtülü daxmaya sığınıb!***

Bəli, qamışla örtülü daxmaya!

Evin böyük qız övladı 4 ay öncə Goranboyda, Dəliməmmədli şəhərində avtoqəza nəticəsində həyatını itirib. Bundan sonra ailə daha bir faciə ilə üzləşib - birotaqlı daxmada təxminən iki ay öncə yanğın baş verib. Orada olan yorğan-döşəkdən tutmuş, stol-stula qədər bir çox əşya yanıb. Ailəyə dost-tanış, müəyyən qədər də icra strukturları yardım edib, bəzi əşyalar göndəriblər. Bundan başqa, Vüsalın bacı-qardaşları məktəbə getmirlər, çünki heç birinin sənədi yoxdur.

Vətən müharibəsi qazisi deyib ki, anası, bacı-qardaşı acından ölməsin deyə, nasaz canıyla fəhləlik eləməyə məcburdur. Sitat: "Onun-bunun qapısında fəhləlik eləyirəm. Bəzən ağır yük olanda canım çıxır, güllənin, qəlpənin yeri ağrıdır. Amma məcburam. Çünki bu qədər ailə mənim əlimə baxır. Heç olmasa, yavan çörəklərini də olsa, qazanıram ki, acından ölməsinlər".

Goranboy Rayon İcra Hakimiyyətindən isə Vüsal Quliyev və ailəsinin acınacaqlı vəziyyətdə olduğunu təsdiqləyiblər. İcra başçısının müavini Rafət Qurbanov bildirib ki, müharibə iştirakçısı ailənin ağır durumuyla əlaqədar təxminən bir həftə öncə icra hakimiyyətinə müraciət edib. Onun sözlərindən belə aydınlaşıb ki, Goranboy Rayon İcra Hakimiyyəti də öz növbəsində sahibkarlara müraciət edib. Onlar müharibə iştirakçısı üçün ev tikintisinə yardım etsin (Qeyd: həmin evin bünövrəsi tanış-bilişin dəstəyi ilə Vüsalın nənəsindən qalan torpaq sahəsində başlanılıb).

Bir sözlə, Məhərrəm Quliyevin başçılıq etdiyi yerli İcra Hakimiyyəti bu işi üzərinə götürmək imkanından məhrum imiş!

Elə isə biz hörmətli Məhərrəm müəllimə sadə bir sualla müraciət eləmək istəyirik: doğrudanmı, Goranboy RİH-in üstü qamışla örtülmüş birotaqlı daxmada yaşayan qazinin dərdinə əncam çəkmək iqtidarı yoxdur? Əlbəttə, rayon sahibkarlarının xeyirxah təşəbbüsə qoşulması arzuediləndir; ancaq müxtəlif tədbirlər üçün (hansı ki, həmin tədbirlər əksər hallarda ictimai faydalılığı etibarilə ikinci dərəcəlidir, ciddi əhəmiyyət daşımırlar) Goranboyun büdcəsində asanlıqla pul tapılırsa, bir qazi ailəsinə ev tikməkdə yardım eləmək üçün maliyyə vəsaiti, doğrudanmı, tapılmır?!

Bütün bunları da bir kənara qoyaq. İllər uzunudur ölkə mətbuatı Məhərrəm Quliyevə bu və ya digər formada bağlı olan şirkətlərdən, həm vaxtilə icra başçısı olduğu Ağstafada, həm indi rəhbərlik etdiyi Goranboyda, eləcə də Bakıda aldığı mənzillərdən, tikdirdiyi obyektlərdən, yaratdığı fermer təsərrüfatlarından yazır. Hər iki rayondakı tenderləri əksər hallarda başçıya yaxın şirkətlərin udduğu barədə iddiaların da sayı-hesabı yoxdur. Əgər belədirsə, rayon sahibkarlarına ağız açmaq yerinə olmazmı ki, M.Quliyev elə öz şəxsi imkanları hesabına acınacaqlı haldakı qaziyə, onun ailəsinə arxa dursun?! Hər halda bizə bu olduqca asan sual kimi gəlir, hətta bəlkə də bu, cavabı özündə olan sualdır.

Əgər qarşı tərəf əksini düşünürsə, bir söz demirik. Ancaq bir şey dəqiqdir: indiki dövrdə bir ailənin, üstəlik, qazi ailəsinin üstü qamışla örtülü daxmada yaşaması heç bir məntiqlə izah edilə bilməz. Və bu biabırçılıq dərhal, hər hansı bürokratik bəhanələr gətirilmədən, qısa zamanda aradan qaldırılmalıdır...

***Sənan Mirzə***

# Heyvan kəsimi məntəqələrində reyd keçirildi

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ölkədə heyvan kəsiminin müasir tələblərə uyğunlaşdırılması, müasir kəsim məntəqələrinin təşkil olunması və qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması istiqamətində nəzarət tədbirlərini davam etdirir.***



"Unikal" Agentlik müfəttişlərinin yeri icra orqanlarının əməkdaşları ilə birgə keçirdiyi reydlər zamanı Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsi, Buzovna yolunda fiziki şəxslər Babayev Emin Sahib oğlu, Əliyev Namiq Əlverdi oğluna; Maştağa qəsəbəsi, H. Heybətov küçəsində Abbasov Elmir Ədalət oğluna; Maştağa qəsəbəsi, Maştağa-Nardaran yolunda fiziki şəxslər Qasımov Ceyhun Fərhad oğlu, Qədirov Niyaməddin Möhlət oğluna; Kürdəxanı qəsəbəsi, Kürdəxanı-Binəqədi şosesində fiziki şəxslər Cəfərov Şərif Əli oğlu, Şirinov Sahil Ayaz oğlu, Əliyev Rəşad Qadir oğluna; Kürdəxanı qəsəbəsi, Hüsü Hacıyev küçəsi ilə Məşədi Adil küçəsinin kəsişməsində fiziki şəxs Rüstəmov Ramil Rüstəm oğluna; Kürdəxanı qəsəbəsi, Tofiq Tağızadə küçəsində Əliyev Qədir Nahid oğluna; Pirşağı qəsəbəsi, Qızılqum ünvanında Həsənov Şükür Ələkbər oğluna; Pirşağı qəsəbəsi, Qurtuluş küçəsində fiziki şəxslər Baloğlanov Kamal Arzuman oğlu, Məlikov Hüseyn Balabəy oğluna məxsus məntəqələrdə qanunsuz heyvan kəsimi və ət satışının həyata keçirildiyi aşkar edilib. Aşkar edilmiş faktlarla bağlı məntəqə sahiblərinə ciddi xəbərdarlıq edilib, yol kənarlarında qanunsuz olaraq quraşdırılmış, qida təhlükəsizliyi tələblərinə uyğun olmayan bir sıra kəsim qurğuları yerli icra orqanlarının əməkdaşları tərəfindən sökülüb.

Agentlik bir daha qanunsuz heyvan kəsimi fəaliyyəti ilə məşğul olan şəxsləri qanunvericiliyin tələblərinə əməl etməyə və qanunazidd fəaliyyətdən yayınmağa çağırır.

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ağdam Sənaye Parkı və "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı azad olunmuş ərazilərdə istehsal müəssisələrinin yaradılmasını sürətləndirəcək!



***Ölkəmizdə regionların iqtisadi inkişafı müvafiq dövlət proqramının əsas tərkib hissəsi olsa da, son bir neçə ayda işğaldan azad olunmuş regionlarımızın inkişafı prioritet sayılır. Artıq işğaldan azad olmuş ərazilərin yenidən qurulması prosesinə başlanılıb. Şəhərlər, kəndlər yenidən qurulur, infrastruktur yaradılır. Bütün bunlar isə yaxın gələcəkdə azadlığa qovuşmuş torpaqlarımızda qaynar həyatın başlayacağından xəbər verir. İnsanların öz doğma torpaqlarına qayıdışı təbii ki, yeni iş yerlərinin açılmasını, iqtisadiyyatın azad olunmuş torpaqlarımızda yenidən qurulmasını da vacib edir.***

Bəs görəsən işğaldan azad olunmuş rayonlarımızın iqtisadi inkişafı ilə bağlı hansı işlərin görülməsi nəzərdə tutulub?

İqtisadiyyat Nazirliyinə ünvanladığımız sorğuya verilən cavabda bildirilib ki, azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası həmçinin, digər iqtisadi rayonlar, o cümlədən Gəncə-Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılması, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını məqsədilə Prezident İlham Əliyev tərəfindən 2021-ci il iyulun 7-də "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalanıb. İqtisadi rayonların yeni bölgüsü regionlarda bərabər inkişafın təmin edilməsi və rəqabətqabiliyyətli ixtisaslaşmanın aparılması baxımından əlverişli imkanlar yaradır.

"Ötən dövrlərdə olduğu kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bölgələrə mütəmadi səfərləri Dövlət Proqramının icrasını sürətləndirməklə, regionların tarazlı inkişafının təmin edilməsi, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işlərə təkan verib. Ölkə başçısı regionların inkişafını 2021-ci ilin 9 ayı ərzində də diqqət mərkəzində saxlamış, Bakı şəhəri ilə yanaşı bölgələrə - Abşeron, Şuşa, Füzuli, Xocavənd, Ağdam, Hacıqabul, Cəbrayıl, Laçın, Goranboy, Kəlbəcər, Daşkəsən, Zəngilan və Qəbələ rayonlarına, Naxçıvan Muxtar Respublikasına, eləcə də Naftalan və Sumqayıt şəhərlərinə etdiyi səfərlər çərçivəsində 120-dən çox obyektin - istehsal müəssisələri, yollar, elektrik təchizatı obyektləri, su təchizatı layihələri, səhiyyə və təhsil müəssisələri - açılış və təqdimat mərasimlərində iştirak etmiş, müvafiq məsələlərlə bağlı tapşırıq və tövsiyələrini verib. Məhz, bu səfərlərin nəticəsi olaraq hesabat dövründə İlham Əliyev tərəfindən müxtəlif rayon və şəhərlərin sosial-iqtisadi inkişafı və bəzi mühüm layihələrin icrası istiqamətində dövlət büdcəsində nəzərdə tutulmuş əsaslı vəsait qoyuluşu, həmçinin Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ümumilikdə 286,96 milyon manat vəsaitin ayrılması ilə bağlı 55 Sərəncam imzalanıb. Ölkə başçısının iştirakı ilə Ağdam Sənaye Parkının təməlqoyma mərasimi həyata keçirilmişdir. Ağdam Sənaye Parkında tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda, xidmət sahələrinin, soyuducu kameraların təşkili planlaşdırılır. Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidentinin 4 oktyabr 2021-ci il tarixli 1453 nömrəli Fərmanı ilə Şərqi Zəngəzur iqtisadi rayonunda, Cəbrayıl rayonu ərazisində "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb.

Regionlarda mədəni irsin qorunması, tarix və mədəniyyət abidələrinin bərpası və mühafizəsi, mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi üzrə müvafiq tədbirlər diqqət mərkəzində saxlanılmış, hesabat dövründə ölkə prezidenti Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılış, Bakıda "Gənclik" parkının, Şuşada Yeni məscidin təməlqoyma və bərpa edilən "Xan qızı" bulağında açılış mərasimində iştirak etmiş, Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana Alban kilsəsində təmir-bərpa işləri ilə, Şuşada Yuxarı Gövhərağa məscidində, Şuşa Rəsm Qalereyasında, Ağdamda Qiyaslı məscidində və Şahbulaq qalasında görülən işlərlə tanış olmuşdur. Həmçinin, dövlət başçısı Ağdamda zəfər muzeyi və açıq hava altında İşğal muzeyinin təməlqoyma mərasimində iştirak etmişdir.

Bütövlükdə hesabat dövründə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulmuş tədbirlərin icrası davam etdirilmiş və qarşıdakı dövrdə də sözügedən tədbirlərin icrası ilə yanaşı işğaldan azad edilmiş ərazilərdə quruculuq-bərpa, məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallığın təmin edilməsi istiqamətində genişmiqyaslı işlərin həyata keçirilməsi nəzərdə tutulubdur.

Qeyd edək ki, artıq KOBİA-nın dəstəyi ilə azad olunmuş ərazilərimizdə yeni kiçik iqtisadi təşəbbüslərin dəstəklənməsinə başlanılıb. İşğaldan azad edilmiş Zəngilan rayonunda ilk "Ağıllı kənd" layihəsinin tətbiq edildiyi Ağalı kəndinə köçəcək sakinlərinə biznes qurmaq üçün avadanlıqlar veriləcək. Kənd sakinlərinin məşğulluğuna və kiçik sahibkarlığa çıxışına dəstək məqsədi daşıyan layihəyə Ağalı kəndinin artıq 30 sakini cəlb olunub. KOBİA tərəfindən onlar üçün biznes təlimləri təşkil edilib. Təlimlərdə iştirakçılara sahibkarlıq fəaliyyəti və müvafiq dəstək mexanizmləri barədə ətraflı məlumat verilib. Növbəti mərhələdə isə Ağalı kənd sakinləri doğma kəndlərinə qayıdandan sonra Dövlət Məşğulluq Agentliyi tərəfindən özünəməşğulluq proqramı çərçivəsində avtoservis, inşaat, məişət avadanlıqları ustası, dərzi, bərbər, gözəllik salonu, un məmulatları istehsalı, ticarət və s. iqtisadi sahələr üzrə avadanlıqlarla təmin olunacaqlar.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




## Fikrət Məmmədov beynəlxalq antikorrupsiya təşkilatının vitse-prezidenti seçilib

***Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov beynəlxalq antikorrupsiya təşkilatının vitse-prezidenti seçilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ədliyyə Nazirliyi məlumat yayıb.

Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) videoformatda təşkil edilən ümumi yığıncağında qurumun rəhbərliyinin seçkisi keçirilib və Honqkonqun Antikorrupsiya Komissiyasının rəhbəri təşkilatın yeni prezidenti, Azərbaycanın Assosiasiyaya yaradıldığı gündən daim göstərdiyi əməli dəstək, habelə işinə verdiyi dəyərli töhfələri nəzərə alınaraq, respublikamızın ədliyyə naziri isə yenidən qurumun vitse-prezidenti seçilib.

Tədbirdə çıxış edən nazir F.Məmmədov IAACA-nın qlobal antikorrupsiya fəaliyyətində mühüm rolunu qeyd edib, bu sahədə ölkəmizin təcrübəsini bölüşərək, dövlət başçısının rəhbərliyi ilə respublikamızda korrupsiyaya qarşı aparılan mübarizə tədbirlərindən bəhs edib. Nazir Assosiasiyanın inkişafına bundan sonra da öz səylərini əsirgəməyəcəyini bildirib, IAACA-nın gələcək fəaliyyətinə dair təkliflər irəli sürüb.

Eyni zamanda, IAACA-nın Konstitusiyasına dəyişikliklərin edilməsi, qurumun Baş katibinin, fəxri üzv və müşavirlərin seçilməsi məsələsinə baxılıb, ölkəmizin təklifləri nəzərə alınmaqla müvafiq qərarlar qəbul olunub.

Elə həmin gün Assosiasiyanın yeni formalaşdırılmış İcraiyyə Komitəsinin iclası keçirilib. IAACA-nın rəhbər orqanı olan Komitədə bütün qitələrdən, o cümlədən Avropadan İtaliya, İspaniya, Fransa, Azərbaycan və s. təmsil olunur.

İclasda təşkilati və digər məsələlər müzakirə olunub, antikorrupsiya tədbirlərinin təşviqi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə bağlı Assosiasiya rəhbərliyinin konkret regionlar üzrə səlahiyyətləri müəyyən edilib. 20-dən çox dövləti əhatə edən Şərqi Avropa regionu ölkəmizin ədliyyə nazirinə həvalə olunub.

Qeyd edilib ki, IAACA tərəfindən konkret regionlar üzrə korrupsiya ilə mübarizə sahəsində fəaliyyətin əlaqələndirilməsi, Assosiasiyanın bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlığının genişləndirilməsi, müsbət təcrübələrin bölüşülməsi, bu məqsədlə görüşlərin, treninqlərin və digər tədbirlərin təşkili nəzərdə tutulur.

Bununla əlaqədar iclasda müvafiq fəaliyyət planının hazırlanması qərara alınıb.

## Çavuşoğlu NATO-nun iclasında iştirak edəcək

***Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu yanvarın 7-də keçiriləcək NATO Xarici İşlər Nazirlərinin fövqəladə toplantısına qatılacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə XİN məlumat yayıb.

Videokonfrans formatında keçiriləcək iclasda son hadisələr fonunda Avropanın təhlükəsizliyinə aid məsələlərin müzakirə ediləcəyi nəzərdə tutulur.

# 2022-ci ilin ən etibarlı aviaşirkətləri - SİYAHI

***Dünyanın təhlükəsizlik və məhsul reytinqi saytı olan "AirlineRatings" 2022-ci ildə səyahət üçün ən təhlükəsiz 20 aviaşirkəti açıqlayıb.***

"Unikal" xəbər verir ki, "Airlineratings.com" bu siyahını hazırlayarkən aviaşirkətin təftişləri, dövlət yoxlamaları, aviaşirkətin qəza tarixi, qazancları, təhlükəsizlik təşəbbüsləri və donanma yaşı kimi amilləri nəzərə aldığını bildirib. Siyahıda Yeni Zelandiya Hava Yolları birincilik edib.

**2022-ci ilin ən etibarlı aviaşirkətləri bunlardır;**



1. Yeni Zelandiya Airlines
2. Etihad Airways
3. Qatar Airways
4. Singapore Airlines
5. TAP Air Portugal
6. SAS
7. Qantas Hava
8. Alaska Airlines
9. EVA Air
10. Virgin Australia / Virgin Atlantic
11. Cathay Pacific Airlines
12 Hawaiian Airlines
13. American Airlines
14. Lufthansa
15. Finnair
16. KLM
17. British Airways
18. Delta Air Lines
19. United Airlines
20. Emirates

*Gülayə Mecid*

# AQTA 3 tondan artıq yararsız dondurmanı məhv etdi

***"AZ FP CO LTD" MMC-nin Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə (AQTA) müraciəti əsasında istehlaka yararsız, istifadə müddəti bitmiş 3 adda, 3442.50 kq müxtəlif növ dondurma məhsulları "Təmiz Sumqayıt-Kənan" MMC-yə məxsus tullantıların zərərsizləşdirilməsi poliqonunda məhv edilib.***

Bu barədə "Unikal"a Agentlikdən məlumat verilib.

AQTA əhalinin sağlamlığının qorunması və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi üçün ardıcıl tədbirlərini davam etdirir və istehlakçı hüquqlarının pozulmasına yönəlmiş qanunsuz halların qarşısının alınması istiqamətində müvafiq addımlar atır.

# BNA-dan 3 avtobusun toqquşması ilə bağlı açıqlama

***Bakı Nəqliyyat Agentliyi bu gün səhər saat 06:00 radələrində Bakının Suraxanı rayonu ərazisində üç sərnişin avtobusunun toqquşduğu qəza ilə bağlı açıqlama yayıb.***

"Unikal" xəbər verir ki, qurum hadisənin nəzarətə götürüldüyünü, müvafiq araşdırma aparıldığını bildirib:

"Marşrut xətləri üzrə sərnişindaşıma fəaliyyəti göstərən "BUS TRANS" MMC, "Transkontrol" MMC və "Azlənd Plaza" MMC-nin məsul şəxsləri Bakı Nəqliyyat Agentliyinə çağırılaraq izahatları alınıb".

Məlumatda o da qeyd olunub ki, hadisə nəqliyyat vasitələrinin reysə başlanma vaxtından əvvəl qeydə alındığından avtobuslarda sərnişin olmayıb: ""Azlənd Plaza" MMC müvəqqəti istismarında olan 217 nömrəli marşrutun sürücüsü xəsarət alıb".

# Sumqayıtda anbardan 400 cüt ayaqqabı oğurlandı

**Sumqayıtda anbardan oğurluq olub.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Sumqayıt ŞPİ 4-cü PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində ötən il dekabrın 24-də şəhər ərazisindəki ticarət mərkəzlərindən birinin anbarından 12.000 manat dəyərində 400 cüt ayaqqabı oğurlamaqda şübhəli bilinən Ş.Məhərrəmov müəyyən edilərək saxlanılıb.

Araşdırma aparılır.

# Kişi müəllimlərinin sayının artırılması üçün çıxış yolu

## Deputat: "Bu tendensiya davam etsə, ümumiyyətlə, müəllimlik peşəsinə marağın azalması ilə nəticələnəcək"

***Dünyada qadın müəllimlərin sayı kişilərlə müqayisədə üstünlük təşkil edir. Lakin son illərdə bəzi ölkələrdə əks tendensiya müşahidə olunmaqdadır. Buna da səbəb oğlan uşaqlarına kişi xarakterini aşılamaq, onlara problemli vəziyyətdə necə davranmağı öyrətməkdən ibarətdir.***



Bu ölkələrdən fərqli olaraq Azərbaycanda kişi müəllimləri ilə qadın müəllimləri arasında xeyli say fərqi var. Ölkədə qadın müəllimlər ümumi müəllimlərin 81 faizini təşkil edir. Amma kişi və qadın müəllimlər arasında bu qədər böyük say nisbətinin olması cəmiyyətdə birmənalı qarşılanmır.

Milli Məclisin sonuncu plenar iclasında deputat Məlahət İbrahimqızı gender bərabərliyindən danışarkən kişilərin təhsil prosesində azlıq təşkil etdiyini vurğulayıb.

Maraqlıdır, Azərbaycanda kişi müəllimlərin sayının azlığı nədən qaynaqlanır və bu problemin həlli istiqamətində nələr edilməlidir ki, oğlan abituriyentlər seçim edərkən pedaqoji ixtisaslara da üstünlük versinlər?

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov məsələni Modern.az-a şərh edərkən bildirib ki, indiki dövrlə müqayisədə əvvəllər məktəblərdə kişi və qadın müəllimləri arasında nisbi bərabərlik vardı:

"Bu məsələ zaman-zaman Milli Məclisin iclaslarında səsləndirilib. Bu problem özünü açıq şəkildə həm məktəblərdə, həm də universitetlərdə göstərir. Təbii ki, birmənalı olaraq, tədrisdə kişilər də, qadınlar da olmalıdır. Əvvəlki dövrlərdə məktəblərdə kişi və qadın müəllimləri arasında nisbi bərabərlik vardı. Misal üçün, əvvəlki zamanlarda Bədən Tərbiyəsi fənni ilə əsasən kişi müəllimlər məşğul olurdu. Amma indi bu fənni qadınlar da tədris edir. Hətta universitetlərdə elə kafedralar var ki, orada məsələn 23 müəllimdən 20-si qadındı, 3-ü kişidi.

Müşahidələrin hamısı onu göstərir ki, zaman-zaman kişilərin elmə, təhsilə marağı azalır. Tədris prosesində kişi müəllimlər olmalıdır ki, oğlanlar müəyyən məsələlərdə kişilərdən nümunə götürüb, onlarla məsləhətləşsin. Bu istiqamətdən tədrisdə kişilər və qadınlar arasında nisbətin pozulmaması önəmlidir".

Parlamentari tədris prosesində kişilərin azlığını müəllim maaşının aşağı olması ilə əlaqələndirib: "Kişilər ailə başçısı olduğu üçün əsasən yüksək maaşlı işlərə üstünlük verirlər. Onları müəllimlərə verilən maaş qane etmir. Düzdür, son illər müəllimlərin maaşında Prezidentin sərəncamı ilə artımlar var. Amma ümumən götürdükdə özəl sektorda, bir sıra qurumlarda maaş yüksək olduğu üçün kişilərin nisbətən müəllimliyə marağı azalıb. Hesab edirəm ki, gələcəkdə bu məsələyə bir daha baxılmalıdır. Çünki bu tendensiya davam etsə, ümumiyyətlə, müəllimlik peşəsinə marağın azalması ilə nəticələnəcək.

Bir nüansı da qeyd edim ki, akademiyanın institutlarında hər il doktoranturaya qəbul üçün 1 yer uğrunda 3-4 namizəd mübarizə aparırdı. Amma bu il akademiyanın elə institutu oldu ki, ora 20-dən artıq doktorluğa yer verilmişdi və cəmi 3 nəfər müraciət etmişdi. Bu da onu göstərir ki, ölkədə elmə maraq azalıb. Bu marağı qorumaq üçün maaş məsələsinə yenidən baxılmalıdır".

C.Məmmədov maaşlarla yanaşı, müəllim peşəsində çalışanlara müəyyən qədər stimullaşdırıcı alətlərin tətbiqinin vacib olduğunu vurğulayıb: "Müəllimlik peşəsinin cəzbedici olması, bu peşəyə marağın artması üçün stimullaşdırıcı alətlər olmalıdır. Yəni məsələn, mən müəllimlik peşəsini seçirəm və mənə təklif olunur ki, ev aldıqda, torpaq aldıqda, hansısa güzəştlər olacaq. Və ya kredit götürəndə hansısa güzəştlər tətbiq ediləcək. Bunların hamısı müəllimlik peşəsinə marağı artıracaq".

# ""Omikron"a yoluxanların virusu simptomsuz keçirmə ehtimalı yüksəkdir" - ARAŞDIRMA

***Alimlər müəyyən ediblər ki, koronavirusun "Omikron" ştammına yoluxanlar COVID-19-u çox vaxt simptomsuz formada keçirirlər. Ancaq koronavirusun digər yeni ştammlarından fərqli olaraq, belə xəstələrin orqanizmində SARS-CoV-2 hissəciklərinin konsentrasiyası yüksəkdir. Onlar hesab edirlər ki, bu xüsusiyyət "Omikron" variantının sürətlə yayılmasının səbəblərindən biri ola bilər.***

AzVision.az xarici mətbuata istinadən xəbər verir ki, araşdırma "medRxiv"də dərc edilib.

Məqalədə qeyd edilib ki, Sietldəki Vaşinqton Universitetinin professoru Lourens Korinin rəhbərlik etdiyi həkimlər bu ilin dekabr ayının əvvəlində CAR-da "Moderna" peyvəndinin klinik sınaqları çərçivəsində 300 nəfər arasında toplanmış məlumatları tədqiq ediblər. Onlardan bir hissəsi immun çatışmazlığı virusuna yoluxanlar və retrovirusa qarşı dərmanlar qəbul edənlər olub.

Tədqiqat iştirakçılarının təxminən üçdə biri koronavirusa yoluxub. Bu da alimlərə "Omikron" variantının immuniteti zəif olan insanlara nə qədər tez təsir etdiyini və infeksiyanın daha çox necə keçdiyini öyrənməyə imkan verib. Bunun üçün Kori və həmkarları vaxtaşırı tədqiqat iştirakçılarının PZR testini həyata keçirib və COVID-19-un xarakterik simptomlarını izləyiblər.

Nəticədə, alimlər "Omikron" ştammının iki unikal xüsusiyyətini müəyyən ediblər. Xəstələnən könüllülərin təxminən 31 faizi koronavirus infeksiyasını simptomsuz formada keçirdiblər, lakin onların orqanizmində virus hissəciklərinin konsentrasiyası qeyri-adi dərəcədə yüksək olub.



Alimlər hesab edirlər ki, bu nəticələr "Omikron" variantının dünyada niyə bu qədər sürətlə yayıldığını izah edə bilər. Onlar bu qənaətə gəliblər ki, araşdırma SARS-CoV-2-nin yeni növləri ilə mübarizədə mümkün qədər tez yeni sınaq sistemlərinin və peyvəndlərin hazırlanmasının zəruriliyini göstərir.

# Məleykə Abbaszadə magistraturaya qəbul prosesindən danışdı

***"Magistraturaya qəbul imtahanının, son iki ildə olduğu kimi, DİM tərəfindən mərkəzləşdirilmiş qaydada beynəlxalq təcrübəyə uyğun yalnız bir mərhələdə keçirilməsi və imtahanda məntiqi təfəkkürün, informatika və xarici dil üzrə biliklərin yoxlanılması nəzərdə tutulur. Növbəti imtahanda da bakalavrların bu sahələr üzrə biliklərinin yoxlanılması üçün qiymətləndirmə aləti olaraq test üsulundan istifadə olunacaq".***




"Unikal" xəbər verir ki , bu sözləri Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri M.Abbaszadənin "Magistr" jurnalının 1-ci nömrəsində yer alan ön sözdə qeyd olunub.

M.Abbaszadə qeyd edib ki, 2022/2023-cü tədris ili üçün də test imtahanı iki dəfə - bir dəfə fevral və ya mart ayında, ikinci dəfə isə may və ya iyun ayında təşkil etmək planlaşdırılır: "Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının ixtisaslaşmalarına və jurnalistika üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrların qəbul imtahanındakı nəticələri Dövlət İmtahan Mərkəzinin Təhsil Nazirliyi ilə razılaşdırılmaqla müəyyən etdiyi müsabiqə şərtini ödədikdə, onlar Mərkəzin elan etdiyi müddətdə qabiliyyət imtahanında iştirak etməlidirlər. İxtisaslaşma seçimi isə qəbul və qabiliyyət imtahanlarının nəticələri elan olunduqdan sonra aparılacaq. Qəbul və qabiliyyət imtahanlarında göstərdikləri nəticəsi müsabiqə şərtlərinə uyğun olan bakalavrlar ixtisaslaşma seçiminə buraxılacaqlar".

O danışarkən deyib ki, xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının ixtisaslaşmalarını və jurnalistika üzrə magistratura ixtisaslaşmalarını qəbul imtahanını verdikdən sonra DİM-in elan etdiyi müddətdə Mərkəzin rəsmi internet saytında qeydiyyatdan keçən, qabiliyyət imtahanından "məqbul" qiymət alan bakalavrlar seçə biləcəklər:

"İxtisaslaşma seçimi "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli"nə uyğun həyata keçirilir. Seçdikləri ixtisaslaşmalar üzrə müsabiqə bakalavrların imtahandan topladıqları bal əsasında aparılır. Hər bir bakalavr ixtisaslaşmaların müsabiqəsinə öz istəyinə uyğun olaraq cari ildə iştirak etdiyi ya birinci, ya da ikinci imtahanda topladığı balla qoşula bilər".

# Özünü FHN polkovniki kimi təqdim edən şəxs beynəlxalq axtarışa verildi

***Özünü Fövqəladə Hallar Nazirliyinin (FHN) polkovnik rütbəli əməkdaşı kimi təqdim edərək Türkiyənin Marmaris Bələdiyyəsinin sədri Mehmet Oktayla görüşən Rasim Əhmədlinin beynəlxalq axtarışa verildiyi məlum olub.***




Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi polis polkovniki Ehsan Zahidov "Unikal"a bildirib ki, R.Əhmədli əvvəllər Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə məhkumluq həyatı yaşayıb.

Onun sözlərinə görə, R.Əhmədli 2021-ci ilin noyabr ayından dələduzluq maddəsi ilə beynəlxalq axtarışa verilib: "Rasim Əhmədlinin yerinin müəyyən edilib saxlanılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir".

Xatırladaq ki, Türkiyənin Marmaris Bələdiyyəsinin sədri Mehmet Oktay sosial şəbəkədə etdiyi paylaşımda bildirib ki, 2021-ci ilin avqust ayında Türkiyədə baş verən meşə yanğınları zamanı Azərbaycanın FHN-nin polkovniki Rasim Əhmədli rəhbərlik etdiyi heyətlə Marmarisə gələrək təbii fəlakətlə mübarizə aparıb. M.Oktay həmin şəxslə yenidən görüşdüyünü yazıb. Bələdiyyə sədri özünü FHN polkovniki kimi təqdim edən şəxə plaket təqdim edib və görüşdən çəkilən fotoları sosial şəbəkə səhifəsində paylaşıb.

Bələdiyyə sədrinin paylaşımından sonra Türkiyə mətbuatı məsələ ilə bağlı araşdırma aparıb. Məlum olub ki, heç bir mənbədə Azərbaycan FHN-də Rasim Əhmədli adlı şəxsin işlədiyinə dair məlumat yoxdur.

FHN-in Mətbuat Xidmətindən bildirilib ki, həmin şəxs nazirlikdə işləmir.

# Vətən şəhidləri anılır...

***Astarada Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edərək igidlik, mərdlik göstərmiş, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirərək şəhid olmuş Astaralı hərbiçilərin orden və medallarını onların valideynlərinə və doğmalarına təqdim olunma mərasimi keçirildi.***

Təqdimat mərasimində öncə rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev çıxış edərək dedi:- Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı ordumuzun qəhrəman zabit və əsgərləri fədakarlığı göstərərək 44 gün ərzində Vətən torpaqlarını işğaldan azad edərək zəfər tarixi yazdı. Bu haqq savaşında rayonumuzun qanları ilə tarix yazan qəhrəman oğullarının da misilsiz əməyi vardır. 8 noyabr Zəfər Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vətən müharibəsində döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Hərbi Qulluqçularının orden və medallarla təltif edilməsi haqqında Sərəncam imzalayıb. Vətənin yüksək mükafatlarına layiq olunanlar arasında astaralı qəhrəman oğullarının da olması bizdə böyük fəxarət hissi oyadır.

Prezidentin Sərəncamına əsasən şəhid kapitan Kamran Qılman oğlu Fərəcov, əsgər Elnur Qədir oğlu Əbdülov 3-cü dərəcəli "Rəşadət" ordeni , kapitan Şahnur Şahin oğlu Hüseynov, gizir Nadir Ağadadaş oğlu Xəlilov, əsgər Sadiq Şahin oğlu Bağırzadə "Azərbaycan Bayrağı" ordeni , kiçik çavuş Məhəmməd Cavanşir oğlu Babazadə "İgidliyə görə" medalı alanların sırasında idilər. İcra başçısı müharibədə hünər göstərib ad qoyan şəhidlərin təltiflərini onların valideynlərinə və doğmalarına təqdim etməklə Vətən üçün vətənpərvər, ləyaqətli övladlar tərbiyə etdikləri üçün onlara minnətdarlığını bildirdi.

İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun şanlı qələbəsində lənkəranlı gənclər də yüksək əsgəri rəşadət və igidlik göstəriblər. Vətən və torpaq uğrunda özünü fəda edən belə igidlərdən biri də rayonun ən ucqar yaşayış məntəqəsi olan Daşdatük kəndində böyüyüb boya-başa çatmış Ülfət Qabil oğlu Babazadə olub. 2019-cu ildən Xüsusi Təyinatlı Qüvvələrdə müddətdən artıq xidmət etmiş Ülfət haqq savaşımızın ilk günündən azğın düşmənə qarşı qanlı döyüşlərdə hünər göstərir. Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının və Şuşanın azad olmasında cəsur əsgər erməni dığalarına vurduğu sarsıdıcı zərbələrlə sözün əsl mənasında tarix yazır. Vətən sevdalısı müharibənin bitməsinə 6 saat qalmış Şuşa şəhərinin yaxınlığında qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlir. Və bu şərəfli ölüm Ülfəti böyük bir xalqın fəxr, qürur yerinə döndərir. Lənkəran elinin qəhrəman oğlu həm də dövlət başçısının müvafiq sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Füzulinin Cəbrayılın, Zəngilanın, Qubadlının, Şuşanın azad olunmasına görə medallara layiq görülür.

Bu günlərdə şəhid Ülvi Babazadənin doğma kəndinin mənzərəli təbiət guşəsində xatirəsinə bulaq və abidə kompleksinin qurulduğu parkın açılışı oldu. Açılış mərasiminə gələnlər- Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, İcra aparatının rəsmiləri, şəhid anaları və valideynləri, Qarabağ müharibəsinin qəhrəmanları , kənd ictimaiyyəti, şəhidin döyüş yoldaşları abidə-kompleksinin önünə tər çiçəklər düzdülər və şəhidlərin ruhlarını bir dəqiqəlik sükutla yad etdilər.

İcra başçısı mərasimdə söz alıb dedi:- 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun əsgər və zabitləri Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında misilsiz şücaət göstərib Vətən torpaqlarını işğaldan azad etməklə şərəfli bir tarix yazdılar. Onların xidmətləri dövlətimiz və xalqımız tərəfindən daim yüksək tutulur. Lənkəran camaatı hər zaman 30 il düşmən tapdağında qalan əzəli yurd yerimiz Qarabağ torpaqların azad olmasında övladlarının, doğmalarının göstərdikləri əvəzsiz xidmətlərdən qürur duyurlar, böyük ehtiramla xatirələrini hər zaman uca saxlayırlar. Bizim Ülvi də qısa bir ömür yaşadı. Qaldı ki, Vətən, torpaq yolunda canından keçdiyi üçün əbədi parlaq günəşə dönərək həyatda ölməzlik qazandı.

Şəhidin atası Qabil kişi, eləcə digər natiqlər isə öz çıxışlarında bütün bu diqqət və əvəzsiz qayğılara görə ölkə başçısı İlham Əliyevə Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür dolu səmimi minnətdarlıq etdilər.

Sonra məktəblilərin ifasında şəhidlərə, Vətənə həsr olunmuş şerlər səsləndi, qonaqlar və mərasim iştirakçıları şəhid bulağından su içdilər.

***Zəfər Orucoğlu, AJB üzvü***



# Qazaxıstana göndəriləcək sülhməramlıların tərkibi necə formalaşacaq?

***Qazaxıstan Təhlükəsizlik Şurasının iclasında çıxış edən prezident Qasım-Jomart Tokayev yardım üçün Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı(KTMT) ölkələrinin liderlərinə müraciət etdiyini açıqlamışdı. Dövlət başçısı ölkəsində baş verən iğtişaşları xaricdən idarə olunan proseslər-təcavüz hesab edib. Çünki iddia edilir ki, iğtişaşlara səbəb olan terrorçu dəstələr xaricdə təlim keçiblər.***

Bunun ardınca yanvarın 6-na keçən gecə Ermənistanın baş naziri Nikol Paşinyan Kollektiv Təhlükəsizlik Şurasının (KTMT-nin ali orqanı-red) sədri kimi iştirakçı ölkələrin liderlərinin Qazaxıstana kollektiv sülhməramlı qüvvələrin göndərilməsi barədə qərar qəbul etdiklərini açıqladı. Beləcə artıq KTMT-nin Qazaxıstana sülhməramlı qüvvələr göndərəcəyi təsdiqini tapıb.

Maraqlıdır, bu xüsusi hərbi kontingentin tərkibi necə formalaşacaq və onların indiki halda Qazaxıstandakı funksiyası nələrdən ibarət olacaq? AzVision.az xəbər verir ki, sülhməramlı qüvvələrin tərkibi, strukturu və sayı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) rəhbərləri tərəfindən müəyyən edilir.

KTMT Qazaxıstana sülhməramlı qüvvələr göndərəcəkKollektiv Sülhməramlı Qüvvələrin tərkibinə KTMT ölkələri tərəfindən ayrılmış qüvvələr-xüsusi hərbi, mülki və polis heyəti və müəyyən vəsaitlər daxil ola bilər. Bundan başqa kontingentin tərkibində müştərək komandanlıq, döyüş və polis bölmələri, hərbi müşahidəçilər qrupu, yardımçı birləşmələr və digər strukturlar yaradıla bilər.

Dövlət Dumasının MDB işləri üzrə komitəsinin rəhbəri Leonid Kalaşnikovun məsələ ilə bağlı mediaya verdiyi məlumata görə, KTMT qüvvələri ölkədə yalnız hər şeyi qaydaya salmaqla deyil, hərbi infrastrukturun və digər obyektlərin mühafizəsi ilə də məşğuldur. Onun sözlərinə görə, KTMT qüvvələrini Qazaxıstana göndərmək üçün Rusiya parlamentinin icazəsi də lazım deyil. Bunun üçün təşkilatın nizamnaməsi var və aidiyyəti hərbi qüvvələr daim hazırlıq vəziyyətindədir.

Qeyd edək ki, KTMT-yə Ermənistan, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistan daxildir.

Xatırladaq ki, Qazaxıstanda 2022-ci ilin ilk günlərində kütləvi etirazlar başlayıb. Ölkənin qərbində neft hasil edən bölgə olan Mangistau vilayətinin Janaozen və Aktau şəhərlərinin sakinləri maye qazın qiymətinin iki dəfə artırılmasına qarşı çıxdılar. Etirazlar daha sonra digər böyük şəhərlərə də yayıldı. Yanvarın 4-ü və 5-də isə respublikanın keçmiş paytaxtı Alma-Atıda təhlükəsizlik qüvvələri ilə toqquşmalar baş verib, polis qaz və səs-küylü qumbaralardan istifadə edib. Bütün Qazaxıstanda internet bağlanıb, bir sıra telekanalların yayımı müvəqqəti dayandırılıb.

Yanvarın 5-də isə Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev Mangistau, Almatı və Nur-Sultanda iki həftəlik fövqəladə vəziyyət elan edib. Elə həmin gün fövqəladə vəziyyət Qazaxıstanın bütün ərazisinə şamil edildi.

Daha sonra Tokayev hökuməti istefaya göndərdi və respublikanın Təhlükəsizlik Şurasına rəhbərlik etdi. İlk dövlət başçısı olmuş Nursultan Nazarbayevi isə bu vəzifədən uzaqlaşdırdı.

Yanvarın 6-na keçən gecə Tokayev Təhlükəsizlik Şurasının ilk iclasını keçirdi və Qazaxıstandakı vəziyyəti "dövlətin bütövlüyünə zərbə vurmaq" kimi qiymətləndirdi. Buna əsasən də o terror təhlükələrini aradan qaldırmaq üçün KTMT-dən kömək istədi. Həmin gecə KTMT-nin Kollektiv Təhlükəsizlik Şurası Tokayevin müraciəti ilə əlaqədar Qazaxıstana kollektiv sülhməramlı qüvvələrin göndərilməsi barədə qərar qəbul edib. Məlumata görə, qüvvələr ölkədə vəziyyəti sabitləşdirmək və normallaşdırmaq məqsədi ilə məhdud müddətə göndəriləcək.

***Tural Tağıyev***

# Maye qazın alovu - TƏHLİL

## Nazarbayevin erası bitdi, etirazlar isə davam edir

***İlin əvvəlindən Qazaxıstanda başlayan etiraz aksiyaları ölkədə son dərəcə gərgin vəziyyət yaradıb. Alma-Atı da daxil olmaqla, bir sıra iri şəhərlərdə etirazçılar yerli administarasiyaların binalarını yandırıblar. Hüquq-mühafizə orqanlarının əməkdaşlarının etirazçıların tərəfinə keçməsi, əsas televiziyaların fəaliyyətini dayandırması barədə məlumatlar yayılıb.***

Qaz ilə sıxılanlar: Qazaxıstan hadisələrinin xronologiyası-Etirazların başlanmasına əsas səbəb 2022-ci ilin yanvarın 1-dən Qazaxıstanda maye qazla bağlı bütün ticari əməliyyatların birjalar vasitəsilə həyata keçirilməsi qərarı olub. Maye qazın qiyməti istehsalçılar üçün əlverişsiz olduğunudan, hökumət qiymətlərin formalaşmasını elektron ticarət platformasında həyata keçirilməsini qərara almışdı. Keçən ilin sonunda birjada keçirilmiş bir neçə sessiyada tələb və təklif nəzərə alınaraq, ilkin qiymətlər formalaşdırılmışdı. Nəticədə maye qazın 1 litrinin topdan satış qiyməti 78 tenqe (0,17 ABŞ dolları) müəyyən edilmişdi. Etirazların mərkəzi olan Aktau, Janozen şəhərləri və Manqıştau əyalətində isə maye qazın pərakəndə satış qiyməti 100-120 tenqeyə (0.23 - 0,27 ABŞ dolları) qədər qalxdı və əhalinin ciddi narazılığına səbəb oldu.



Doğrudur, hökumət maye qazla bağlı baş qaldırmış etirazlara operativ reaksiya verərək, həmin şəhərlərə xüsusi komissiyalar göndərməklə, məsələni yerindəcə həll etməyə səy göstərdi. Amma maye qazın pərakəndə satış qiymətləri dərhal 50 tenqeyə endirilsə də, etirazlar səngimədi, əksinə, daha da artaraq Alma-Atı, Taraz, Qaraqanda, Şımkənd, Qızılorda, Aktoba və digər şəhərlərə yayıldı. Sosial şəbəkələrdə qruplar yaradılaraq etiraz dalğası koordinasiya olunmağa başlandı.

Prezident Qasım-Jomart Tokayevin xalqa son müraciətindən də vəziyyətin kifayət qədər gərgin olması sezilir. Prezident qarşıdurmalar nəticəsində hüquq-mühafizə orqanlarının əməkdaşlarının öldürüldüyü faktını etiraf edib. Bundan əlavə, Tokayev yaxın vaxtlarda ölkədəki böhranın həllilə bağlı təkliflər paketini açqlayacağını da söyləyib.

Diqqət çəkən digər əsas məqam isə Tokayevin Qazaxıstanın Təhlükəsizlik Şurasının rəhbəri vəzifəsini icra etməyə başladığını bildirilməsi oldu. Bu vaxta qədər həmin vəzifəni 1-ci prezident, "elbaşı" Nursultan Nazarbayev icra edirdi. 2018-ci ildə qəbul olunmuş konstitusiya qanununa əsasən, Təhlükəsizlik Şurasının rəhbəri vəzifəsi ömürlük 1-ci prezidentə verilmişdi. Tokayevin bu vəzifənin icrasına başlaması etirazçıların əsas tələblərinin - yəni "Nazarbayevin hakimiyyətdən uzaqlaşdırılması" tələbinin formal da olsa, yerinə yetirildiyi anlamına gəlir. Bəzi teleqram kanallar Nazarbayevin Qırğızıstana qaçması barədə məlumat yayıblar. Onun 2016-cı ildə Taldıkorqan şəhərində ucaldılmış heykəlinin aşırılması görüntüləri yayılıb.

Görünən odur ki, Nazarbayev idarəetmə sükanını Tokayevə verərək, ölkəni tərk edib. Tokayevin böhranı təkbaşına aradan qaldıracağı inandırıcı görünmür. Çünki idarəetmə sistemi daha çox Nazarbayevin siyasi təsirini saxlamaq üzərində qurulduğu üçün böhran şəraitində prezidentin təkbaşına vəziyyətdən çıxması çətindir.

Qeyd edək ki, bundan əvvəl etirazçıların tələbi ilə prezident Tokayev hökuməti istefaya göndərmiş, baş nazirin birinci müavini müvəqqəti olaraq Nazirlər Kabinetinin sədri vəzifəsini icra etməyə başlamış, bəzi önəmli vəzifələrə dərhal öz yaxın adamlarının təyinatını həyata keçirmişdi. Tokayevin ölkədə yaranmış vəziyyətə görə hökuməti ittiham etməsi ilk növbədə etirazçılarla simvolik olsa da həmrəyliyin nümayiş etdirilməsinə hesablanmış anti-Nazarbayev gedişi kimi də qiymətləndirilə bilər ki, nəticədə "elbaşı" və ona yaxın nazirlər vəzifələrini tərk etməli oldular. Bu vəziyyət Tokayevin önündə ilk dəfə olaraq "suveren" prezident olmaq və nəhayət ki Nazarbayevin təsirindən qurtularaq, idarəetməni öz öhdəsinə götürmək perspektivi yaradır. Tokayevin bunu həyata keçirməyə siyasi iradə və gücünün çatıb-çatmayacağını isə zaman göstərəcək.

Qazaxıstandakı etiraz aksiyalarını koordinasiya edən əsas şəxs kimi isə hazırda Fransada məskunlaşmış keçmiş energetika naziri, "Qazaxıstanın demokratik seçimi" hərəkatının lideri Muxtar Əbülyazovun adı hallanır. Əbülyazov vaxtilə Qazaxıstanın uğurlu iş adamlarından biri olub, 90-cı illərin sonlarında energetika naziri işləyib. Ölkənin ən böyük kommersiya banklarından biri "Bank Turan Aləm"in sahibi olub. Nazarbayevin siyasətinə qarşı çıxaraq vəzifəsindən istefa verdikdən sonra 2002-ci ildə həbs olunsa da, sonradan xarici dövlət və təşkilatların təzyiqilə həbsdən azad edilərək, xaricə qaçıb. Sahibi olduğu bank isə dövlət tərəfindən milliləşdirilib. Əbülyazov öz ölkəsində "qəsdən adam öldürmək" cinayətində ittiham olunaraq, qiyabi ömürlük həbsə məhkum edilib.

Əbülyazovun hazırda Ukraynanın paytaxtı Kiyevdə olması və Qazaxıstandakı aksiyaları oradan idarə etməsi ilə bağlı ehtimallar irəli sürülür. Onun müraciətini yayımladığı sosial şəbəkə hesabındakı telefon nömrələrinin Ukraynaya aid olması müəyyən edilib.

Qazaxıstandakı etirazların ilkin siyasi nəticəsi olaraq onu demək olar ki, ölkənin birinci prezidenti Nazarbayev artıq siyasi səhnədən uzaqlaşdırıldı və onun boş qalmış yeri uğrunda hazırkı prezident Tokayevlə müxalif lider Əbülyazov arasında siyasi mübarizə gedir. Qalibi isə xarici arbitrlarla yanaşı, daxili auditoriyanın rəyi müəyyən edəcək.

***Tofiq Vahid***

# "Legiya" Emrelini toplanışda gözləmir - SƏBƏB

***"Legiya" təlim-məşq toplanışı üçün Dubaya yollanacaq heyəti açıqlayıb.***

Apasport.az saytının məlumatına görə, Polşa klubu hazırlıqda iştirak etməli olan 35 futbolçunun adını bəyan edib ki, onlar arasında Azərbaycan millisinin hücumçusu Mahir Emreli də var.

Bildirilib ki, zədədən əziyyət çəkən Bartoş Kapustka və Joel Abu Hanna yanvarın 14-də düşərgəyə qoşulacaq. Bundan başqa, 5 oyunçunun koronavirusa yoluxduğu üçün təcrid olunduğu, Mahir Emrelinin isə səfərə gedəcək kollektivdə yer almayacağı vurğulanıb.

"Legiya" rəhbərliyi də 25 yaşlı forvardın Dubay toplanışına qatılmasını gözləmir. Xüsusən də, onun kluba ayrılmaq istədiyini bildirən məktub göndərməsindən sonra. Sadəcə, polşalılar formal olaraq Emrelinin adını siyahıda göstərib. Bu, futbolçunun düşərgəyə qatılmaması təqdirində onunla bağlı sərt cəza tədbiri görmək üçün əsaslı səbəb olacaq.



Qeyd edək ki, Mahir Emrelinin "Legiya" ilə sözləşməsi 2024-cü ilin yayına qədərdir.

# Eddi İsrafilov "Neftçi"yə keçidini dəyərləndirdi: "Həyəcanlı layihəyə qoşuldum"



***"Neftçi"nin yeni transferi Eddi İsrafilov keçidi ilə bağlı paylaşım edib.***

Apasport.az saytının məlumatına görə, 30 yaşlı yarımmüdafiəçi instaqram səhifəsi vasitəsilə təəssüratlarını bölüşüb. Milli komandamızın üzvü bir müddət baxışda olduğu "Luqo"ya da təşəkkür edib: "Öncə "Luqo"ya orada keçirdiyim aylara görə təşəkkür edirəm. Mənə hər cür şəraiti yaratdığınız və qərarımı başa düşdüyünüz üçün vidalaşmaq istədim. Sizə ürəkdən təşəkkür edirəm! İkincisi, böyük kluba və çox gözəl, həyəcanlı layihəyə qoşulmaqdan çox sevincliyəm".

Qeyd edək ki, Eddi İsrafilov "Neftçi" ilə 2,5 illik müqavilə imzalayıb.

# Koronavirusla bağlı fövqəladə iclas: Çempionat təxirə salınmayacaq

***İtaliya A seriyası təşkilatçıları ölkədə koronavirus pandemiyasının artığını nəzərə alaraq fövqəladə iclas keçirib.***

Apasport.az saytının məlumatına görə, toplantıda çempionatın turlarının təxirə salınmaması qərara alınıb. Liqanın futbol protokoluna əməl edilməsi məqsədəuyğun bilinib. Buna əsasən, komandalarda qapıçı da daxil olmaqla ən azı 13 sağlam futbolçu varsa, oyun keçirilməlidir. A seriyası rəhbərliyinin qərarı pandemiya səbəbindən komandaları karantinə almaq və matçları ləğv etmək hüququna malik olan Regional Səhiyyə Nazirlikləri (ASL) ilə ziddiyyət təşkil edir.

Qeyd edək ki, "Bolonya", "Salernitana" və "Torino"da ən azı 7 yoluxma aşkarlandığından, bu komandaların müvafiq olaraq "İnter", "Venetsiya" və "Torino" ilə bu gün keçirməli olduqları XX tur matçları təxirə



salınıb. Yerli səhiyyə nazirliyi bu oyunlarla yanaşı, "Fiorentina" - "Udineze" görüşünün də təxirə salınmasını qərara alıb.

# Qiymət oxudu, "Neftçi" geri çəkildi

***Azərbaycan millisinin sabiq müdafiəçisi Ufuk Budak "Neftçi"nin dəvətini geri çevirib.***

Bu barədə "sportinfo"ya Bakı təmsilçisindən məlumat verilib. "Ağ-qaralar" adıçəkilən oyunçuya 2 illik müqavilə təklif ediblər. Tərəflərin anlaşa bilməməsinə səbəb maliyyə şərtləridir. Budak ağ-qara formanı geyinmək üçün gözləniləndən xeyli artıq pul tələb edib.



O, illik 200 min dollar qazanacağı təqdirdə, Türkiyəni Azərbaycanı dəyişə biləcəyini söyləyib ki, bu da "Neftçi" rəhbərliyini razı salmayıb.

Qeyd edək ki, ilk dəfə 2011-ci ildə Azərbaycan millisinə dəvət alan Ufuk Budak 17 oyun keçirib. O, cari mövsümün əvvəlində "Altınordu"dan "Bursaspor"a keçsə də, 3 ay əvvəl "Ərzurumspor"un yolunu tutub. 31 yaşlı sol cinah oyunçunun TFF I Liqa klubu ilə müqavilə müddəti 1 ildir.

# Aqueroya "Mançester Siti"dən təklif

***Ürəyində yaranmış problem səbəbindən ötən ay karyerasını başa vuran Serxio Aquero "Mançester Siti"yə qayıda bilər.***



Apasport.az saytının məlumatına görə, "şəhərlilər" komanda tarixinin ən məhsuldar futbolçusuna klubun səfirinin köməkçisi vəzifəsini təklif etmək niyyətindədir.

Premyer Liqa təmsilçisinin hazırkı səfiri 1967-68 mövsümündə komanda ilə ölkə çempionluğunu qazanan Mayk Sammerbidir. O, 1965-1975-ci illərdə "Mançester Siti"nin formasını geyinib.

Qeyd edək ki, Serxio Aquero 2011-2021-ci illərdə "Mançester Siti"nin heyətində 390 oyun keçirib, 260 qol vurub.

# 17 futbolçu "Mançester Yunayted"dən ayrılmaq istəyir



***"Mançester Yunayted"in heyətində köklü dəyişiklik ola bilər.***

Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, belə ki, heyətdəki 17 oyunçu klubda xoşbəxt deyil. Onların Mançester təmsilçisindən ayrılmaq istədiyi vurğulanıb. Bu oyunçuların klubları ilə müqavilələri davam etsə də, onlar qalmaq tərəfdarı deyillər.

Bildirilib ki, Ole Qunnar Sulşerin istefasından sonra baş məşqçi vəzifəsinə təyin olunnan Ralf Raqnik bütün oyunçularla təkbətək görüşüb və onlarının çoxunun klubda xoşbəxt olmadığının fərqinə varıb Komandadan ayrılmaq istəyən futbolçular sırasında Antoni Marsyal, Pol Poqba, Cesse Linqar, Edinson Kavani, Xuan Mata, Donni van de Bek, Din Henderson, Erik Bayi, Fil Cons, Nemanya Matiç, Fred, Dioqo Dalot, Aksel Tuanzebenin olduğu yazılıb.

"Mançester Yunayted" bu mövsümün sonunda Çempionlar Liqasında vəsiqə qazanmasa, Kriştiano Ronaldonun da komandadan ayrılmasının gündəmdə olacağı vurğulanıb.

# Azərbaycanlı Olimpiya çempionu Qazaxıstana yollana bilmir

***Azərbaycanlı ağırlıqqaldıran Nicat Rəhimov Qazaxıstana qayıda bilmir.***



Bu barədə apasport.az saytına məlumatı Qazaxıstan millisinin şərəfini qoruyan Olimpiya çempionunun atası Əli Rəhimov verib.

O bildirib ki, iki aydır ölkəmizdə olan Nicat bu günlərdə geri dönməli idi. Lakin Qazaxıstanda baş verən kütləvi etirazlar səbəbindən yaranan iğtişaş Rəhimovun səfərini təxirə salıb. Əli Rəhimov oğlunun bu üzdən hətta yay aylarına qədər Azərbaycanda qalmasını da istisna etməyib.

Rəhimov dopinq-test üçün verdiyi sidik analizini dəyişdirməkdə şübhəli bilinən oğlunun məhkəmə prosesinin yekunlaşdığını da sözlərinə əlavə edib: "Ancaq məhkəmə hələlik heç bir qərar verməyib. Biz də həmin qərara əsasən hansısa addım atmağı düşünürük".

Qeyd edək ki, 2014-cü ildə Azərbaycan yığmasını tərk edərək, Qazaxıstan vətəndaşlığına keçən və oranın yığmasının şərəfini qoruyan Nicat Rəhimov 2015-ci ildə dünya çempionu, 2016-cı ildə isə Rio-de-Janeyro Yay Olimpiya Oyunlarının qalibi olub.